05_27 IYUl-QARA.qxd 2/5/2026 10:31 PM Page 1

UNİKAL

№05 (2284) 6 fevral 2026-cı il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az



# Liderlərin Əbu-Dabi görüşü:

## Yekun sülh istiqamətində yeni mərhələ...



Səh.3

## Arayik və daha 4 separatçı ömürlük məhkum edildi

*Xəbər verdiyimiz kimi, Bakı Hərbi Məhkəməsində Ermənistan vətəndaşlarının davam etdirilən məhkəmə prosesində təqsirləndirilən şəxslərə hökm oxunur. "Unikal"ın məlumatına görə, hökmə əsasən təqsirləndirilən Arayik Harutyunyan qəti olaraq ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum olunub. Levon Mnatsakanyan, David Manukyan, Davit İşxanyan, David Babayan da qəti olaraq ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum ediliblər. Dövlət ittihamını müdafiə edən prokurorlar da təqsirləndirilən şəxslərin ömürlük azadlıqdan məhrum edilməsini təklif etmişdi. Digər erməni müttəhimlər də verilmiş ittihamlarda təqsirli bilinib. Arkadi Qukasyanla Bako Sahakyan ayrılıqda 20...*

Səh.2

## "Regionda ciddi proseslər gedir"



*Milli Məclisin Regional məsələlər komitəsinin sədri, deputat Siyavuş Novruzov "Unikal"a müsahibə verib. O, Naxçıvan Muxtar Respublikasının status məsələsindən, referendumun nə zaman keçiriləcəyindən, deputatların sayının artırılmasından, Naxçıvanda hansı struktur islahatlarının aparıla biləcəyindən...*

Səh.4

## Sülh müqaviləsi siyasi-diplomatik masada: Güclü Bakı tələsmir, kövrək İrəvan isə...



*Fevral ayının 4-də keçirilən "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdimolunma mərasimi zamanı Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan dünyaya sülh mesajı veriblər: "Biz sülh şəraitində yaşamağı öyrənirik və münaqişə dövrünü geridə qoymuşuq".*

Səh.9

## Süleyman Mikayılovu gözləyən böyük təhlükə



*Xəbər verildiyi kimi, bu il yanvarın 30-da Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə Süleyman Mikayılov Bakı şəhəri Qaradağ Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilib. Qeyd edək ki, 64 yaşlı S. Mikayılov 2010-cu ildən Qaradağ Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsini tuturdu.*

Səh.5

# Aqşin Fatehin restoranında saxta viski satılırmış



***Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları tərəfindən Bakı şəhəri, Nərimanov rayonu, Ə.Rəcəbli küçəsi, ev 3, m 15 ünvanında fəaliyyət göstərən, fiziki şəxs Xəlilzadə Hüseyn İsa oğluna məxsus "By Fateh" ictimai iaşə obyektində plandankənar yoxlama keçirilib.***

"Unikal" xəbər verir ki, yoxlama zamanı müəssisənin qida təhlükəsizliyi qeydiyyatından keçmədən fəaliyyət göstərdiyi, emal sahələrində havalandırma sisteminin quraşdırılmadığı, xammal ət məhsullarının istehlaka təqdim edildiyi məlum olub. Eyni zamanda satış üçün nəzərdə tutulmuş aşkar saxtalaşdırılma əlamətləri olan "Chivas" əmtəə nişanlı alkoqollu içkilər aşkarlanıb.

Faktla bağlı obyekt rəhbərliyi barəsində inzibati xəta haqqında protokol tərtib olunub, qida təhlükəsizliyi tələblərinə uyğun olmayan məhsulların dövriyyəsinin qadağan edilməsi ilə bağlı məhdudlaşdırıcı qərar qəbul edilib. Nümunələr götürülərək laboratoriyaya təqdim edilib.

Qeyd edək ki, "By Fateh" restoranının sahibi meyxanaçı Aqşin Fatehdir.

# Röya da məşhur "TikTok" trendinə qoşuldu



***Xalq artisti Röya Ayxan sosial şəbəkələrdə növbəti dəfə diqqət mərkəzinə düşüb.***

Pop ulduz məşhur TikTok trendinə qoşularaq etdiyi paylaşım ilə izləyicilərinin marağına səbəb olub.

Sənətçinin trend çərçivəsində çəkdiyi video qısa zamanda sosial şəbəkələrdə geniş yayılıb və minlərlə baxış toplayıb. Röyanın enerjili görüntüsü istifadəçilər tərəfindən rəğbətlə qarşılanıb.

Paylaşım sosial mediada müxtəlif reaksiyalar doğurub. Bir çox izləyici Xalq artistinin trendləri yaxından izləməsini və müasir ritmlə ayaqlaşmasını yüksək qiymətləndirib, bəziləri isə bu cür paylaşımların müzakirə mövzusu olduğunu qeyd edib.



# "Keçmiş həyat yoldaşımı sevirəm" - Aynur Dadaşova

***Müğənni Aynur Dadaşova boşandığı həyat yoldaşı haqda açıqlamasıyla gündəmə gəlib.***

"Unikal" xəbər verir ki, sənətçi "Günə uğurla" verilişində onu hələ də sevdiyini deyib.

"Mən yoldaşımı sevirəm" deyən Aynura həmkarı Nadir Qafarzadə "Sevən ayrılmazdı" sözlərini deyib.

Aynur isə ona "Sevgi də var-dövlətdir. Onu da Allah insana bəxş edir. Heç bir kişi və qadın istəməz ailəsini özü dağıtsın. Allahın yazısına pozu yoxdur" cavabını verib.

Qeyd edək ki, Aynur həyat yoldaşının ona xəyanət etdiyini və ayrıldığını açıqlamışdı. Dadaşovanın bu nikahdan iki övladı var.

# "Dedi-qodu edənlər kökəlir" - Günel Zeynalova



***Müğənni Günel Zeynalova açıqlaması ilə diqqət çəkib.***

"İncə səhər" verilişində olan ifaçı qeybətin insana artıq çəki verdiyini deyib:

"Dedi-qodu insana çəki aldırır. Ən pis, ən günah şeydir. Kim qeybət edirsə, kökəlir. Qızlar, sizə deyirəm, etməyin. Qeybəti sevmirəm, kimsə yanımda danışırsa, deyirəm, gözünlə görmüsən? Otururusan evdə, telefonda qeybət edir, ağız da işləyir. Dediyi sözlər beyində yığılır və kök olursan".

# Coşqun Rəhimov özünə yeni iş tapdı

***Əməkdar artist Coşqun Rəhimov özünü digər istiqamətdə sınamağa başlayıb.***



Aktyor artıq müəllim kimi fəaliyyət göstərir. Sənətçi aktyorluq dərsi deməsi barədə "Mədəniyyət TV"yə açıqlama verib.

Rəhimov yumor aktyorları yetişdirəcək: "Uşaqlar gəlir və mənim aktyorluq biliklərimdən faydalanırlar. Çalışırıq yumor dəstəsi yaradaq. İstəyimiz zövq verməkdir. Aktyor sənəti istəkdən asılıdır. Öyrənmək istəyən varsa, yardım edəcəyik. İstedadlı gənclərimiz çoxdur. Amma narazıyam ki, tez məşhur olmaq istəyirlər".

# Baş rolda Nəsrin Cavadzadə

***Türkiyədə fəaliyyət göstərən azərbaycanlı aktrisa Nəsrin Cavadzadə yeni layihəsində baş rolda olacaq.***

O, "Daha on yedi" serialında rol alacaq. Aktrisa ekran işində "Şəbnəm" obrazını canlandıracaq.

Qeyd edək ki, serial Bodrumda çəkiləcək.



# Azərbaycanda lombardların fəaliyyəti necə tənzimlənəcək? - Açıqlama

***""Lombardlar haqqında" yeni qanun layihəsinin hazırlanmasına və qəbul olunmasına ehtiyac var. Lombard fəaliyyətinin daha yaxından tənzimlənməsi və qorunması üçün ayrıca qanunun qəbul edilməsi məqsədəuyğundur".***

Bunu "Unikal"a açıqlamasında deputat Vüqar Bayramov deyib. Onun sözlərinə görə, bir sıra hallarda lombardlarla borc alanlar arasında müəyyən məsələlərlə bağlı anlaşılmazlıqlar və hətta bəzi hallarda ciddi problemlər yaşanır:

"Əvvəlki illərdə bəzi lombardların öz öhdəliklərinə əməl etməməsi və girovla bağlı problemlər yaratmasını müşahidə edirdik. Son illər bu sahədə vəziyyətin xeyli dəyişməsi və yaxşılaşması müşahidə olunur. Bunlarla yanaşı yeni qanun layihəsinin hazırlanmasına, xüsusilə girovlar, girova münasibətdə verilən borcun məbləğinin tənzimlənməsinə və lombardlardan borc alan vətəndaşlarımızın hüquqlarının daha yaxından qorunmasına ehtiyac var. Eyni zamanda, lombardların faiz dərəcələrinin tənzimlənməsi istiqamətində inzibati deyil, digər metodlardan istifadənin nəzərdə tutulması məqsədəuyğun olardı".

Deputat bildirib ki, bu gün lombardların kredit faizləri kifayət qədər yüksəkdir: "Kredit faizləri yüksək olduğuna görə, lombarddan kredit götürən vətəndaşlarımızın daha çox borclanmasına gətirib çıxarır. Digər tərəfdən isə borclandıqdan sonra bir sıra hallarda onu qaytarmaqda çətinlik olur. Bu baxımdan girovu almaqda da çətinliklər müşahidə edilir".

Qeyd edək ki, Azərbaycan Mərkəzi Bankının sədri Taleh Kazımov ötən gün keçirdiyi mətbuat konfransında "Lombardlar haqqında" qanunun yeni layihəsinin hazırladığını bildirib. Onun sözlərinə görə, AMB bu sahədə daha çox istehlakçıların hüquqlarının müdafiəsinə fokuslanacaq.

***Anar Kəlbiyev***

# ADY ilə Ağdama get, azad olunmuş ərazilərə 7 günlük icazə əldə et!




***"Azərbaycan Dəmir Yolları" QSC (ADY) ilə Ağdama səfər biləti işğaldan azad olunmuş ərazilərə 7 günlük giriş icazəsini təmin edir.***

ADY-dən "Unikal"a verilən məlumata görə, bilet rəsmiləşdirilən zaman DİN-in elektron portalından sözügedən icazə avtomatik əldə edilir.

"Doğma Qarabağın kəşfinə qatarla çıxmaq - Ağdamdan adlayıb Şuşaya, Xankəndiyə, Xocalıya, Xocavəndə, Ağdərəyə və digər azad olunmuş ərazilərə keçmək artıq daha rahatdır", - məlumatda qeyd edilir.

Məlumata görə, sərnişinlər səfər günündən bir həftə sonra, yəni növbəti şənbə günü Ağdamdan Bakıya qatarla rahat qayıda bilər.

Qeyd edək ki, biletləri ADY-nin rəsmi saytından, "ADY Mobile" tətbiqindən və ya dəmiryol kassalarından əldə etmək olar.

# Sabiq məmurların ağlasığmaz təqaüd davası

## 4-5 min pensiya alanlar narazıdırsa, onda 300-400 manatın ümidinə qalanlar neynəsinlər?

***Azərbaycanda yüksək təqaüd almalarına baxmayaraq sabiq vəzifəli şəxslərin narazılığı davam edir. Bu dəfə Bakı Ağır Cinayətlər Məhkəməsinin ötən il təqaüdə göndərilən məşhur hakimi Azad Məcidov Dövlət Sosial Müdafiə Fondunu (DSMF) məhkəməyə verib.***

A.Məcidov ona hakim kimi əmək pensiyasının təyin edilməməsindən şikayət edib. Sabiq hakim iddia ərizəsində göstərib ki, 30 ilə yaxın müddətdə Daxili İşlər Nazirliyinin istintaq orqanlarında və Milli Təhlükəsizlik Nazirliyində (hazırda ləğv edilib) çalışıb, rütbəcə polkovnikdir. 2011-2025-ci illərdə isə Bakı Ağır Cinayətlər Məhkəməsində hakim işləyib. Təqaüdə çıxdıqdan sonra Azad Məcidova hakimlik fəaliyyəti nəzərə alınmadan aylıq 4 881 manat pensiya təyin edilib.

Bu səbəbdən o, məhkəməyə müraciət edərək hakim fəaliyyəti nəzərə alınmaqla pensiyasının yenidən hesablanmasını xahiş edib.



Cavabdeh qismində çıxış edən DSMF-nin Xüsusi Şərtlərlə Təyinat üzrə Mərkəzi Filialı isə iddianın rədd edilməsini istəyib. Qurum etirazını belə əsaslandırıb ki, mövcud qanunvericiliyə görə, əlavə hakim pensiyası almaq üçün azı 15 il hakim kimi fəaliyyət göstərmək tələb olunur. Azad Məcidovun isə hakimlik stajı 14 il 4 ay 13 gündür.

Lakin Bakı İnzibati Məhkəməsi DSMF-nin arqumentlərini əsassız hesab edib. Qeyd olunub ki, "Hakimlərin statusuna dair" Avropa Xartiyasının 6.4-cü maddəsinə əsasən, müəyyən müddət ərzində hakim vəzifəsini icra etmiş və pensiya yaşına çatmış şəxslərə son vəzifə maaşlarına mümkün qədər yaxın məbləğdə pensiya təyin olunmasına təminat verilməlidir.

Qərara əsasən, Azad Məcidovun iddiası təmin edilib. Məhkəmə DSMF-yə sabiq hakimin pensiyasının yenidən hesablanması öhdəliyini qoyub.

Bundan əvvəl:

- Bakı Ağır Cinayətlər Məhkəməsinin sabiq hakimi Azər Orucov da pensiyasının miqdarından narazı olduğu üçün məhkəməyə müraciət etmişdi. 2019-cu ildə 1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsi Azər Orucovun xeyrinə qərar çıxarmışdı. O, həmin tarixdən bir il əvvəl təqaüdə göndərilmişdi. Sözügedən tarixdə Azərbaycanda məhkəmə hakimlərinin maaşı minimum 1500 manatdan başlayırdı;
- 2019-cu ildə Bakı Ağır Cinayətlər Məhkəməsinin keçmiş hakimi Ənvər Seyidov 1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinə müraciət edərək pensiyasının artırılmasını tələb etmişdi;
- 1997-ci ildə ləğv edilən Xarici Əlaqələr Nazirliyinin birinci müavini, nazir əvəzi Qüdrət Quliyevin vəkili onun pensiyası ilə əlaqədar Bakı İnzibati Məhkəməsinə müraciət etmişdi. Müraciətdə sabiq məmurun dövlət qulluqçusu kimi təqaüdə çıxması tələbi irəli sürülmüş, lakin birinci instansiya məhkəməsi bu tələbi təmin etməmişdi (2022).
- Hacıqabul rayon İcra Hakimiyyətinin Memarlıq və Tikinti Şöbəsinin rəhbəri (baş memar) vəzifəsindən təqaüdə göndərilən İsabala Cəbrayılov da təqaüdündən narazı qaldığı üçün DSMF-ni məhkəməyə vermişdi (2024-cü il);
- Azərbaycanın sabiq sənaye-energetika naziri, "AzərKimya" Dövlət Şirkətinin prezidenti və Milli Məclisin III çağırış deputatı olmuş akademik Məcid Kərimov da Dövlət Sosial Müdafiə Fondunu (DSMF) məhkəməyə verib. "Qafqazinfo"nun əldə etdiyi məlumata görə, 67 yaşlı akademik pensiyasının azaldılmasından narazıdır. DSMF tərəfindən aparılan araşdırma zamanı müəyyən edilib ki, Məcid Kərimova deputat fəaliyyəti ilə bağlı 4226 manat pensiya ödənilib. Təkrar hesablamadan sonra isə məlum olub ki, onun deputatlıq fəaliyyəti 5 illik tam səlahiyyət müddətini əhatə etmir. Belə ki, M.Kərimov növbədənkənar seçkilərdə seçildiyindən 4 il 5 ay 16 gün deputat olub. Buna baxmayaraq, əvvəlki hesablamada səhvə yol verilərək iddiaçıya aylıq 5858 manat köçürülməli olduğu halda, 6631 manat pensiya ödənilib. İndi isə həmin səhv aradan qaldırılaraq artıq ödənilmiş ümumi 4226 manatın iddiaçının pensiyasından tutulmasına qərar verilib. Eks-nazirin vəkili isə dövlət qurumunun qərarını əsassız sayıb (2025-ci il)...

Belə nümunələrin sayı çoxdur. Göründüyü kimi, qəribə vəziyyət yaranıb: vaxtilə yüksək post tutan şəxslər aldıqları pensiyanın artırılması ilə bağlı mütəmadi şikayətlənir, məhkəmə qapılarını aşındırırlar. Onların narazılığı, bəlkə də, əsassız deyil. Ola bilsin, pensiyaları hesablanarkən bu sabiqlərə qarşı haqsızlıq edilib. Lakin məsələ ondadır ki, keçmiş məmurlar vəzifədə olarkən sadə vətəndaşların aldıqları pensiyaların azlığından şikayətlənməsinə qeyri-ciddi, hətta bəzən rişxəndlə yanaşırlar. Sosial rifahın yüksək olmasından bəlağətli nitqlər söyləyirlər. Və...

Və gün gəlir, vətəndaşın bu gün 300-400 manat pensiyasını "rifah göstəricisi" kimi təqdim edən vəzifə sahiblərinin özləri dövlətin onlara təyin etdiyi 2-3 min manatlıq, hətta 5-6 min manatlıq pensiyalardan gileylənirlər, sözügedən məbləğləri bəyənmirlər, bir sözlə, hazırda hesablanan təqaüdlə dolanmağın çətinliyindən dəm vururlar!

Məşhur məsəldə deyildiyi kimi: "Bu nə pəhrizdir, bu nə kələm turşusu?"

Dünənədək onillərlə ən ağır işlərdə çalışanların bu gün 300-400 manat pensiya almasını sosial rifahın təminatı adlandıranlar necə olur ki, özlərinin həmin məbləğdən 10 dəfə yüksək təqaüdlərini bəyənmirlər?!

Düşündürücü sualdır, həm düşündürücü, həm də lakonik...

***Toğrul Əliyev***

05_27 IYUl-QARA.qxd 2/5/2026 10:31 PM Page 4



# Sülh müqaviləsi siyasi-diplomatik masada: Güclü Bakı tələsmir, kövrək İrəvan isə...



***Fevral ayının 4-də keçirilən "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdimolunma mərasimi zamanı Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan dünyaya sülh mesajı veriblər: "Biz sülh şəraitində yaşamağı öyrənirik və münaqişə dövrünü geridə qoymuşuq".***



Görünən odur ki, tərəflər sülh müqaviləsini imzalamağa çox yaxındır. İlham Əliyev və Paşinyanın eyni vaxtda sülhdən danışması təsadüfi deyil. Hər iki lider göstərir ki, sülhə alternativ yoxdur.



**Bəs niyə yekun razılaşma hələ əldə edilməyib?**

Məsələ razılaşmanın siyasi vaxtı və forması ilə bağlıdır. Tərəflər prinsipial olaraq bir-birinin ərazi bütövlüyünü tanıdıqlarını bəyan etsələr də, sülh müqaviləsi təkcə niyyət sənədi deyil. O, gələcək riskləri bağlayan hüquqi və siyasi mexanizm olmalıdır. Hazırda isə bu mexanizm tam bağlanmayıb.

2020 və 2023-cü ildən sonra hərbi münaqişə de-fakto bitsə də, post-münaqişə gündəliyi hələ tamamlanmayıb. Sərhədlərin tam delimitasiya və demarkasiyası yoxdur, kommunikasiya xətləri açılmayıb, hüquqi-siyasi iddialar tam aradan qaldırılmayıb və s...

Azərbaycan üçün sülh müqaviləsi müharibənin geri dönməz yekunu deməkdir. Buna görə də rəsmi Bakı riskli və qeyri-müəyyən detallarla sənəd imzalamaq istəmir.

**Sülh müqaviləsinə xarici aktorların təsiri**

Rusiya, Aİ və ABŞ sülhü dəstəkləsə də, hər biri prosesdə öz təsirini qorumağa çalışır. Ermənistan bu təsirlər arasında manevr edir. Azərbaycan isə prosesin ikitərəfli və regional əsasda bağlanmasını üstün tutur. Bu maraqların üst-üstə düşməməsi prosesi müəyyən qədər ləngidir.

Regionda ABŞ, Rusiya və Avropa İttifaqından əlavə, Türkiyə və İran kimi aktorların da prosesə təsiri var. Xarici güclər öz maraqlarını daxildəki prosesə təsir formasında göstərir və bu da bəzi hallarda qarşılıqlı etimadı azaltmış olur.

Daha bir məqam isə Ermənistanın daxili siyasi zəifliyidir. Belə ki, Paşinyan hökuməti paradoksal vəziyyətdədir. İrəvan beynəlxalq müstəvidə sülhə hazır görünsə də, daxildə revanşist müxalifət, kilsə və köhnə elita tərəfindən ciddi təzyiq altındadır. Buna görə Ermənistan sülhə "hə" deyir, amma onu daxildə legitimləşdirə biləcək siyasi kapitalı hələ tam formalaşdıra bilmir.

Paşinyan üçün sülh müqaviləsi geosiyasi seçimdir, amma bu seçim seçkilərsiz və konstitusion dəyişikliklərsiz risklidir. Azərbaycanın əsas narahatlığı ondadır ki, Ermənistan Konstitusiyasında və bəzi hüquqi sənədlərdə Qarabağa dolayı yolla iddialar qalır. Bu, gələcəkdə hüquqi və siyasi revizionizm üçün zəmin yarada bilər. Qarşı tərəf isə konstitusiyanın yeni mətninin yaxın zamanda hazır olacağını nazirlik səviyyəsində açıqlayıb.

Bakının prizmasından sülh müqaviləsi yalnız bu iddialar institusional səviyyədə aradan qalxdıqdan sonra məntiqlidir. Ona görə də Ermənistandakı seçkiləri gözləyir. Seçkilərdən sonra Paşinyan qalib gəlsə və ya siyasi mövqeyini gücləndirsə, konstitusion dəyişikliklər üçün mandat əldə etsə, yalnız onda sülh müqaviləsi real gündəmə çevrilə bilər. Əks halda, zəif hökumət sülhü imzalasa belə, bu sənəd Ermənistanda uzunömürlü olmayacaq. Azərbaycan isə məhz dayanıqlı sülh istəyir, taktiki deyil.

Beləliklə, Azərbaycan güclü mövqedə olduğu üçün tələsmir. Ermənistan isə zəif mövqedə olduğu üçün tam qərar verə bilmir. Sülh müqaviləsi çox güman ki, Ermənistan daxilində siyasi konsolidasiya, hüquqi iddiaların aradan qaldırılması və sərhəd məsələlərində irəliləyişdən sonra mümkün olacaq.

Bu, baş verənə qədər sülh ritorikası davam edəcək, amma imzalanma prosesi hələlik strateji pauzadadır. Lakin hər şey yolunda gedərsə, sülh müqaviləsinin 2026-cı ilin ortalarından sonra imzalanması real perspektiv kimi nəzərdə tutulur.

***Ağarza Elçinoğlu***

# Azərbaycan Asiya və Avropa arasında əsas logistika rolunu gücləndirməyi hədəfləyir

***Azərbaycan Asiya və Avropa arasında əsas logistika rolunu gücləndirməyi hədəfləyir.***

Bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov "Global Times"a müsahibəsində deyib.

Onun sözlərinə görə, Azərbaycan "Bir kəmər, bir yol" təşəbbüsünün milli inkişaf strategiyaları ilə uzlaşdırılmasını konkret iqtisadi nəticələrə malik uzunmüddətli strateji tərəfdaşlıq kimi qiymətləndirir.

Ceyhun Bayramov bildirib ki, rəsmi Bakı Orta Dəhliz və Zəngəzur Dəhlizini Avrasiya bağlantısının bir-birini tamamlayan elementləri kimi mövqeləndirməklə, Azərbaycan Asiya ilə Avropa arasında əsas logistika mərkəzi rolunu gücləndirməyi, eyni zamanda, regional sabitliyə, iqtisadi artıma və Çinlə qarşılıqlı faydalı əməkdaşlığa töhfə verməyi hədəfləyir.

# QHT-lər üçün yeni qayda

***Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin fəaliyyətinin təkmilləşdirilməsi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi haqqında 29 dekabr 2025-ci il tarixli Fərmanda verilmiş tapşırıqların icrası davam etdirilir.***

Bu Fərmana əsasən, Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşdirilən və fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Respublikasının hüquqi və fiziki şəxslərinə, habelə bələdiyyələrə qrant verə bilən qurumlar, həmçinin Azərbaycan Respublikasının Gənclər Fondu, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyi qeyri-hökumət təşkilatlarının müsabiqə yolu ilə və müsabiqədənkənar yolla, dövlət sifarişləri və subsidiya daxil olmaqla bütün növ maliyyələşdirilməsini "bir pəncərə" prinsipi əsasında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi ilə birlikdə həyata keçirəcək. Bununla əlaqədar olaraq, qeyri-hökumət təşkilatlarının "bir pəncərə" prinsipi əsasında maliyyələşdirilməsinə dair qayda 3 ay müddətində təsdiq olunmalıdır.

Fərmandan irəli gələrək, Nazirlər Kabinetinin 16 yanvar 2026-cı il tarixli Sərəncamı ilə qeyd olunan qaydanın layihəsini hazırlamaq Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinə həvalə edilib.

Tapşırıqların icrası ilə əlaqədar QHT Agentliyi 2026-cı il yanvarın 26-dan etibarən QHT-lərə dövlət dəstəyinin "bir pəncərə"li yeni mexanizmində iştirak edən dövlət qurumları ilə görüşlərə başlayıb. Mədəniyyət Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Elm və Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, Səhiyyə Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Dini Qurumlar İş üzrə Dövlət Komitəsi, Dövlət Turizm Agentliyi, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya, Azərbaycan Gənclər Fondu, KOBİA və ƏƏSMN-nin Sosial Xidmətlər Agentliyinin məsul şəxsləri ilə QHT Agentliyində məsləhətləşmələr aparılıb.

Görüşlər zamanı "bir pəncərə" sistemi ilə bağlı təfərrüatlar müzakirə olunub, mövcud təcrübələr nəzərdən keçirilib. Proses davam etdirilir.

# Lavrov üçtərəfli razılaşmalardan danışdı

***"Rusiya, Azərbaycan və Ermənistan liderləri arasında əvvəllər əldə edilmiş üçtərəfli razılaşmalar aktuallığını qoruyub saxlayır".***

"Unikal" xəbər verir ki, bunu Rusiyanın xarici işlər naziri Sergey Lavrov Ermənistan Parlamentinin sədri Alen Simonyanla görüşündə deyib.

Onun sözlərinə görə, bu üçtərəfli razılaşmalar Cənubi Qafqazdakı bütün iqtisadi, nəqliyyat və logistika məsələlərinin həllinə imkan verir: "2020-2022-ci illərdə Rusiya və Azərbaycan prezidentləri və Ermənistanın Baş naziri səviyyəsində razılaşdırılmış bütün məsələlər, fikrimizcə, ilk növbədə Cənubi Qafqazdakı bütün iqtisadi, nəqliyyat və logistika problemlərinin həlli üçün öz aktuallığını qoruyub saxlayır.

Ermənistan bu qərarlardan əhəmiyyətli dərəcədə faydalanmalıdır. Bütövlükdə bütün regionun normal fəaliyyətinə mane olan bütün manelər aradan qaldırılmalıdır. Biz buna hazırıq".

Rusiyanın xarici işlər naziri xatırladıb ki, Rusiya, Azərbaycan və Ermənistan baş nazirlərinin müavinləri üçtərəfli işçi qrupu çərçivəsində liderlərin razılaşmaları əsasında qəbul edilmiş qərarlar çərçivəsində müntəzəm əlaqə saxlayırlar.

***Ağarza Elçinoğlu***

05_27 IYUI-QARA.qxd 2/5/2026 10:31 PM Page 5



# İlham Əliyev Ərdoğana məktub ünvanlayıb



***Prezident İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana məktub ünvanlayıb.***

"Unikal" xəbər verir ki, məktubda deyilir:

"Hörmətli cənab Prezident, Əziz Qardaşım, Qardaş Türkiyə Respublikasını dərindən sarsıdan zəlzələdən üç il ötür. Dəhşətli faciə nəticəsində həlak olmuş insanların əziz xatirəsini böyük ehtiram və hörmətlə yad edirəm.

Bu fəlakət Türkiyə üçün ciddi humanitar sınaq oldu. Bir gecədə minlərlə insan həyatını itirdi, bir çox şəhər və yaşayış məntəqələri dağıntıya məruz qaldı. Həmin günlərdə Azərbaycan xalqı baş verənləri dərin ağrı hissi ilə izləyərək qardaş Türkiyənin kədərini öz kədəri kimi qəbul etdi, onun dərdinə şərik çıxdı.

Azərbaycan-Türkiyə münasibətlərinin əsasında duran sarsılmaz qardaşlıq məhz belə çətin məqamda öz real mahiyyətini nümayiş etdirdi. Faciənin ilk anlarından etibarən Azərbaycan dövləti və cəmiyyəti birlik və həmrəylik prinsiplərinə sadiq qalaraq Türkiyənin yanında oldu, dəstək və yardım əlini uzatdı.

Sizin müdrik rəhbərliyiniz altında aparılan güclü dövlət idarəçiliyi və xalqın birliyi sayəsində hazırda Türkiyə zəlzələnin nəticələrinin aradan qaldırılması istiqamətində mühüm nəticələr əldə etmişdir. Zərər çəkmiş bölgələrdə genişmiqyaslı yenidənqurma işlərinin aparılması, müasir yaşayış infrastrukturunun yaradılması və sosial rifahın bərpası Türkiyənin uzunmüddətli inkişaf strategiyasının bariz göstəricisidir.

Qardaşlıq borcumuzun təzahürü olaraq Azərbaycan Kahramanmaraş vilayətində aparılan yenidənqurma və bərpa işlərinə töhfə vermiş, burada "Azərbaycan" məhəlləsinin salınmasında yaxından iştirak etmişdir. Qardaş ölkənin bərpa və quruculuq səylərinə Azərbaycanın dəstəyi dostluq və müttəfiqlik münasibətlərimizin əyani ifadəsidir.

Əminəm ki, "Bir millət iki dövlət" fəlsəfəsinə əsaslanan Azərbaycan-Türkiyə güclü birliyi və strateji müttəfiqliyi bundan sonra da xalqlarımızın firavanlığına töhfə verməklə yanaşı regional sabitliyin, təhlükəsizliyin və davamlı inkişafın təmin olunmasına xidmət edəcəkdir.

Bu anım günündə Sizə, həlak olanların ailələrinə və bütün qardaş Türkiyə xalqına bir daha dərin hüznlə başsağlığı verir, həyatlarını itirmiş bacı-qardaşlarımıza uca Allahdan rəhmət diləyirəm".

# Ceyhun Bayramov: "Bakı-Pekin tərəfdaşlığı qarşılıqlı siyasi etimada əsaslanır"

***Azərbaycan Çini mühüm iqtisadi tərəfdaşlarından biri kimi qiymətləndirir və ikitərəfli əməkdaşlığın genişləndirilməsinə böyük əhəmiyyət verir.***



Bu barədə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Çinin "Global Times" nəşrinə müsahibəsində bildirib. "Azərbaycan öz nəqliyyat infrastrukturu və tranzit potensialının qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi ilə bağlı Çinin də dəstəklədiyi təşəbbüslərlə uzlaşdırılmasına, eləcə də Orta Dəhlizin Şərqlə Qərb arasında etibarlı marşrut kimi möhkəmləndirilməsinə strateji əhəmiyyət verir", - nazir bildirib.

O vurğulayıb ki, Bakı, həmçinin Çinlə təhsil, mədəniyyət, turizm və humanitar mübadilə sahələrində əməkdaşlığın genişləndirilməsinə böyük önəm verir ki, bu da iki ölkənin xalqları arasında qarşılıqlı anlaşmanın möhkəmlənməsinə kömək edəcək. XİN başçısı əlavə edib ki, Azərbaycanla Çinin hərtərəfli strateji tərəfdaşlığı uzunmüddətli, çoxölçülü və qarşılıqlı faydalı əməkdaşlıq modelidir.

"Bizim nöqteyi-nəzərimizdən tərəfdaşlıq bir neçə əsas sütuna, ilk növbədə, ölkələrimizin liderləri arasında münasibətlərə, qarşılıqlı siyasi etimada, habelə ikitərəfli və çoxtərəfli məsələlərlə bağlı yüksək səviyyəli dialoqa əsaslanır. Bərpa olunan enerji, "yaşıl" texnologiyalar və davamlı inkişaf sahəsində əməkdaşlıq da hərtərəfli strateji tərəfdaşlığın perspektivli və gələcəyə yönəlmiş istiqaməti kimi nəzərdən keçirilir", - nazir vurğulayıb.

C.Bayramov, həmçinin deyib ki, Azərbaycan Şanxay Əməkdaşlıq Təşkilatı kimi beynəlxalq təşkilatlar çərçivəsində də Çinlə əməkdaşlığı genişləndirmək niyyətindədir.

Onun sözlərinə görə, Azərbaycan regional çoxtərəfli mexanizmləri dialoq, etimadın möhkəmləndirilməsi və praktiki əməkdaşlıq üçün ən mühüm meydançalar kimi nəzərdən keçirir. Nazirin fikrincə, bu çoxtərəfli strukturlar çərçivəsində Çinlə əməkdaşlıq ümumi regional problemlərin həlli üçün geniş imkanlar açır.

"Azərbaycanın regional diplomatiya sahəsindəki təcrübəsi və Çinin qlobal təsiri etimadın möhkəmləndirilməsi səylərinə böyük töhfə verə bilər", - nazir əlavə edib.

# Arayik və daha 4 separatçı ömürlük məhkum edildi

***Xəbər verdiyimiz kimi, Bakı Hərbi Məhkəməsində Ermənistan vətəndaşlarının davam etdirilən məhkəmə prosesində təqsirləndirilən şəxslərə hökm oxunur.***

"Unikal"ın məlumatına görə, hökmə əsasən təqsirləndirilən Arayik Harutyunyan qəti olaraq ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum olunub.

Levon Mnatsakanyan, David Manukyan, Davit İşxanyan, David Babayan da qəti olaraq ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum ediliblər.

Dövlət ittihamını müdafiə edən prokurorlar da təqsirləndirilən şəxslərin ömürlük azadlıqdan məhrum edilməsini təklif etmişdi.

Digər erməni müttəhimlər də verilmiş ittihamlarda təqsirli bilinib. Arkadi Qukasyanla Bako Sahakyan ayrılıqda 20, Madat Babayan, Melikset Paşayan 19, Qarik Maritosyan 18, Davit Allahveriyan 16, Vasili Beqloryan və Qurgen Stperayan, Erik Qazaryan isə 15 müddətinə azadlıqdan məhrum edilib.

Qeyd edək ki, Ermənistanın hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu



zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşlarının məhkəməsi hökmün oxunması ilə davam etdirilir.

# Hərbi Prokurorluqda yeni şöbə rəisi təyin olundu

Baş redaktor:
Zaur Əhməd

"Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxçıvani 5A
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Son dəqiqə" MMC mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000



***Respublika hərbi prokurorluğunda daha bir vəzifəyə təyinat olub.***

"Unikal" "Qafqazinfo"ya istinadən xəbər verir ki, bununla bağlı baş prokuror Kamran Əliyev müvafiq əmr imzalayıb.

Əmrə əsasən ədliyyə polkovnik-leytenantı Amid Verdiyev Kadrlar şöbəsinin rəisi təyin edilib.

Qeyd edək ki, son günlər Hərbi prokurorluqda bir neçə kadr dəyişikliyi baş tutub.

# Leyla Əliyeva əfqanıstanlı fəalla görüşdü

***Fevralın 5-də Leyla Əliyeva Əbu-Dabidə əfqanıstanlı qadın hüquqları fəalı və tədqiqatçısı Zarqa Yaftalı ilə görüşüb.***

"Unikal" xəbər verir ki, söhbət zamanı Heydər Əliyev Fondunun uzun illərdir maarifləndirmə, səhiyyə və sosial dəstək sahələrində əhəmiyyətli layihələr həyata keçirdiyi, həm regionda, həm də beynəlxalq səviyyədə əhalinin həssas təbəqələri üçün bərabər imkanların yaradılmasına kömək etdiyi barədə məlumat verildi.

Eyni zamanda, Heydər Əliyev Fondu ilə Zarqa Yaftalının rəhbərlik etdiyi Qadınlar və Uşaqlar üzrə Hüquqi Araşdırmalar Fondu arasında əməkdaşlıq imkanlarına toxunuldu, bu fondun fəaliyyətinin 100 mindən çox qadın və uşağın təhsilə, həmçinin hüquqi müdafiəyə çıxışını təmin etdiyi qeyd olundu.

Görüşdə, həmçinin qlobal humanitar təşəbbüslə-



rin həyata keçirilməsində ortaq məqsədlərin olduğu vurğulandı, qadın hüquqlarının qorunması və davamlı təhsilin təmin edilməsinin əhəmiyyəti barədə fikir mübadiləsi aparıldı.

05_27 IYUI-QARA.qxd 2/5/2026 10:31 PM Page 6



# Liderlərin Əbu-Dabi görüşü: Yekun sülh istiqamətində yeni mərhələ...

## Proseslər proqnozlaşdırılan kimi davam edərsə, sülh müqaviləsinin payızda bağlanması mümkün görünür

***Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyanın Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində eyni tədbirdə iştirakı iki ölkə arasında sülh prosesinə dair optimizmi artırıb. Dünya liderlərinin təbrik mesajları regiondakı müsbət tendensiyaya işarə edir.***

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 4-də Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyanla görüşüb. Tərəflər ABŞ Prezidenti Donald Trampın ev sahibliyi və şahidliyi ilə baş tutan Vaşinqton Sülh Sammitinin nəticələrinin həyata keçirilməsi istiqamətində əldə olunan irəliləyişi alqışlayıblar. Onlar Ermənistan və Azərbaycan arasında normallaşma prosesinin ikitərəfli əsasda irəlilədilməsində müsbət dinamikanın qorunub saxlanmasının vacibliyini qeyd ediblər.

Tərəflər hər iki cəmiyyətin sülhün faydalarına real həyatda şahid olduqlarını qeyd ediblər. Onlar ikitərəfli ticarətin başlamasından və Azərbaycandan Ermənistana neft məhsullarının ixracının davam etməsindən, həmçinin üçüncü ölkələrdən Ermənistana taxıl və digər malların Azərbaycan ərazisindən tranzitinin həyata keçirilməsindən məmnun olduqlarını bildiriblər. Tərəflər ikitərəfli ticarət və iqtisadi əməkdaşlığı genişləndirmək üçün imkanları araşdırmağa davam etmək barədə razılığa gəliblər.

Onlar, həmçinin vətəndaş cəmiyyəti nümayəndələrinin qarşılıqlı səfərlərini alqışlayıb və etimad quruculuğu tədbirlərinin genişləndirilməsinin zəruriliyi barədə razılığa gəliblər.

Prezident İlham Əliyev və Baş nazir Nikol Paşinyan TRIPP və digər bağlantı layihələrinin həyata keçirilməsini müzakirə ediblər. Azərbaycan Prezidenti və Ermənistanın Baş naziri iki ölkə arasında sülhün və sabitliyin daha da möhkəmləndirilməsi istiqamətində səyləri davam etdirməyə hazır olduqlarını bir daha təsdiqləyib, ikitərəfli normallaşma prosesinə dəstək məqsədilə təmasları davam etdirmək barədə razılığa gəliblər.

Bu barədə fikirlərini "Unikal"la bölüşən politoloq Elxan Şahinoğlu bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə (BƏƏ) səfəri məhsuldar oldu: "Birincisi, səfər çərçivəsində iki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlığın inkişafı mövzuları müzakirə edildi. İkincisi, İlham Əliyev Əbu-Dabidə Azərbaycanın və Birləşmiş Ərəb Əmirliklərinin Silahlı qüvvələri arasında birgə hərbi təlimlərini izlədi. Üçüncüsü, İlham Əliyev Əbu-Dabidə Ermənistanın baş naziri Nikol Paşinyanla görüşdü və iki lider sülh quruculuğunun növbəti mərhələsini müzakirə etdilər. İlham Əliyev və Nikol Paşinyan ötən ilin 8 avqust Vaşinqton görüşündən bir ay əvvəl də məhz Əbu-Dabidə görüşmüşdülər. Birləşmiş Ərəb Əmirlikləri Azərbaycanla yanaşı Ermənistana da yatırımlarının həcmini artırıb. Birləşmiş Ərəb Əmirliklərinin Azərbaycanla birgə hərbi təlimlər keçirməsi bu ölkənin Cənubi Qafqazda möhkəmlənməsi istəyindən xəbər verir. Azərbaycanın Səudiyyə Ərəbistanı və Qətərlə də sıx əməkdaşlığı var. Ancaq hiss olunur ki, BƏƏ fəallığı ilə Cənubi Qafqazda bu iki ölkəni qabaqlamağa çalışır. Körfəz ölkələri tərəfdaş sayılsalar da, aralarında rəqabət də var. Odur ki, Birləşmiş Ərəb Əmirliklərinin Azərbaycan və Ermənistanla artan tərəfdaşlığını müşahidə edən Səudiyyə Ərəbistanı və Qətər də Cənubi Qafqazda möhkəmlənmənin yeni yollarını arayacaqlar".

Milli Cəbhə Partiyasının sədr müavini, politoloq Məhəmməd Əsədullazadə bizimlə söhbətində bildirib ki, Əbu-Dabi görüşü yeni razılaşmalara əsaslanır. Onun sözlərinə görə, Əbu-Dabidə Azərbaycan prezidenti və Ermənistan baş naziri nümayəndə heyətinin iştirakı ilə görüşü Yekun sülh müqaviləsi istiqamətində etimadın artırılmasına və yerdə qalan məsələlərin həlli müstəvisində önəmlidir: "İki ölkə arasında de-fakto sülh əldə olunub. Bu görüşdə bir neçə məsələlərin müzakirə edilməsi də istisna deyil. Birinci, Ermənistan bu il ərzində Konstitusiya dəyişikliyinə getməlidir. İkinci, TRIP layihəsi-Zəngəzur dəhlizində işlərə başlanmalıdır. Üçüncü, bu ilin axırına kimi -payızda sülh müqaviləsi bağlanmalıdır. Ermənistanda parlament seçkilərində Nikol Paşinyan qələbə əldə edəcəksə, sülh müqaviləsinin payızda bağlanması mümkün görünür. Yaxın perspektivdə Türkiyə-Ermənistan sərhədləri açılacaq. Eləcə də yaxın günlərdə Azərbaycandan Ermənistana yeni jest olacaq. Həmçinin Türkiyədən yüklər Ermənistan ərazisindən keçərək Azərbaycana daxil olması istisna deyil".



Mövzu ilə bağlı Bakıvaxtı.az-a danışan beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli bildirib ki, Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanması baxımından 2026-cı il həlledici dövr hesab olunur: "Çünki 2025-ci ildə tərəflər sülh müqaviləsini paraflayıblar və hazırda yalnız onun rəsmi imzalanması və ratifikasiyası mərhələsi qalır. İmzalanma üçün ideal dövr 2026-cı ilin birinci yarısı ola bilər. Əgər Ermənistan Konstitusiyasına dəyişikliklər sürətlə qəbul olunarsa, müqavilənin imzalanması mümkün görünür. 2026-cı ilin sonuna qədər ratifikasiya prosesi başa çatarsa, sənəd tam hüquqi qüvvə qazanmış olacaq. Bunun üçün isə Ermənistan Konstitusiyasının dəyişdirilməsi əsas şərtlərdən biridir".

Müsahibimiz əlavə edib ki, eyni zamanda sərhədlərin demarkasiya və delimitasiya prosesi tamamlanmalı, nəqliyyat və kommunikasiya xətləri açılmalı, eləcə də beynəlxalq təminat mexanizmləri formalaşdırılmalıdır. Bu baxımdan, Ermənistanın Azərbaycan ərazilərinə qarşı iddialarının Konstitusiya səviyyəsində aradan qaldırılması və kommunikasiya məsələlərinin rəsmən təsdiqlənməsi halında sülh müqaviləsinin imzalanmasına ciddi maneə qalmır.

***H.İsgəndərov***



# Prezidentin BƏƏ-yə səfəri başa çatdı

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfəri fevralın 5-də başa çatıb.***

"Unikal" xəbər verir ki, Əbu-Dabinin Zayed Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Prezident İlham Əliyevi Əbu-Dabi Əmirliyinin İcraiyyə Şurasının üzvü, Əbu-Dabi İnvestisiya Holdinqinin prezidenti Şeyx Hamid bin Zayed Al Nəhyan və digər rəsmi şəxslər yola salıblar.

# 15 Ermənistan vətəndaşına hökm oxundu - SİYAHI

***Bakı Hərbi Məhkəməsində Ermənistan vətəndaşlarının davam etdirilən məhkəmə prosesində təqsirləndirilən şəxslərə hökm oxunub.***

"Unikal" xəbər verir ki, məhkəmənin qərarı ilə Qarabağdakı keçmiş qondarma rejimin başçılarından Arayik Harutyunyana, "müdafiə naziri" Levon Mnatsakanyana, "parlamentin sədri" Davit İşxanyana, "xarici işlər naziri" David Babayana, Ermənistan silahlı qüvvələrinin general mayoru David Manukyana ömürlük həbs cəzası verilib.

Qarabağdakı keçmiş qondarma rejimin başçılarından olan Arkadi Qukasyan və Bako Sahakyan 20 il müddətinə azadlıqdan məhrum edilib.

Ermənistan silahlı qüvvələrinin tərkibində Xocalı soyqırımında iştirakını etiraf edən, Qarabağdakı keçmiş qondarma rejimin silahlı dəstələrinə könüllü qoşulan Madat Babayan isə 19 il müddətinə azadlıqdan məhrum edilib.

Təqsirləndirilən şəxslər 65 yaşına çatdığı üçün Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin tələblərinə əsasən onlara ömürlük azadlıqdan məhrumetmə cəzası təyin edilə bilməyib.

Lakin şəxslər ömürlük azadlıqdan məhrumetmə növündə cəza nəzərdə tutan cinayətlərin törədilməsində ittiham olunur və həmin ittihamlar məhkəmə istintaqı zamanı sübuta yetirilib.

Bunlarla yanaşı Ermənistan Respublikası silahlı qüvvələrində xidmət etmiş Melikset Paşayan 19 il, Qarabağdakı keçmiş qondarma rejimin "dövlət naziri" Qarik Martirosyan 18 il, "Təhlükəsizlik Şurasının üzvü" Davit Allahverdiyan və qanunsuz birləşmələrin üzvü Levon Balayan 16 il, Vasili Beqlaryan, Qurgen Stepanyan, Erik Qazaryan isə hər biri 15 il müddətinə azadlıqdan məhrum ediliblər.

Onlar Ermənistanın hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə günahkar bilinibləр.

05_27 IYUI-QARA.qxd 2/5/2026 10:31 PM Page 7





## Ceyhun Bayramov BƏƏ-li həmkarı ilə görüşdü

***Fevralın 4-ü xarici işlər naziri Ceyhun Bayramov Əbu-Dabidə Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) xarici işlər naziri Abdullah bin Zayed Əl Nəhyan ilə görüşüb.***

"Unikal" xəbər verir ki, bununla bağlı Xarici İşlər Nazirliyi (XİN) məlumat yayıb. Görüş zamanı Azərbaycan-BƏƏ hərtərəfli strateji tərəfdaşlığının siyasi, iqtisadi, ticarət, energetika, humanitar aspektləri, regional və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, habelə bölgədə cari təhlükəsizlik vəziyyəti müzakirə olunub.

Hər iki ölkənin dövlət başçılarının qarşılıqlı səfərlərinin və həmin səfərlər çərçivəsində əldə olunmuş razılaşmalar və imzalanmış sənədlərin əlaqələrimizin hərtərəfli strateji tərəfdaşlıq müstəvisinə yüksəlməsindəki əsas rolu vurğulanıb.

Ötən ilin noyabr ayında iki ölkə arasında Hərtərəfli Strateji Tərəfdaşlıq üzrə Əməkdaşlıq Komitəsinin ilk iclası çərçivəsində əldə edilmiş razılıqların icrası məsələləri nəzərdən keçirilib, bu il Bakıda keçiriləcək ikinci iclasa hazırlıq işləri məmnunluqla qeyd olunub.

Regional və beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyin bundan sonra da davam etdirilməsinin vacibliyi vurğulanıb.

Ceyhun Bayramov, 8 avqust Vaşinqton sammitindən sonra sülh gündəliyi barədə qarşı tərəfi məlumatlandırıb.

Azərbaycanla BƏƏ arasında münasibətlərdə müsbət dinamika təqdir olunub, bu çərçivədə digər səylərlə yanaşı, iki ölkə vətəndaşlarının səfərlərinin daha da asanlaşdırılması istiqamətində mümkün addımlar müzakirə olunub.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Emin Əmrullayev BƏƏ-də Dünya Hökumət Sammitində iştirak etdi

***Elm və təhsil naziri Emin Əmrullayevin rəhbərlik etdiyi nümayəndə heyəti Birləşmiş Ərəb Əmirliklərinin insan resursları və əmirlik naziri, ali təhsil və elmi tədqiqatlar naziri vəzifəsini icra edən Abdulrahman Al Avarın dəvəti ilə Dubay şəhərində keçirilən Dünya Hökumət Sammitində iştirak etmək məqsədilə Birləşmiş Ərəb Əmirliklərinə səfər edib.***

"Unikal" xəbər verir ki, "Gələcəyin Hökumətlərinin Formalaşdırılması" mövzusunda baş tutan Dünya Hökumət Sammitinin 2026-cı il buraxılışında dünyanın müxtəlif ölkələrindən nazirlər daxil olmaqla, 6000-dən çox yüksəksəviyyəli iştirakçı, 400-dən çox nüfuzlu spiker, habelə 80-dən çox beynəlxalq təşkilat təmsil olunub.

Sammit çərçivəsində elm və təhsil naziri Emin Əmrullayev Birləşmiş Ərəb Əmirliklərinin Ali Təhsil və Elmi Tədqiqatlar Nazirliyi tərəfindən təşkil olunan "Əməyin gələcəyi" mövzusunda nazirlər panelində iştirak edib. Panel zamanı əmək bazarının transformasiyası, elm və texnologiyanın iş dünyasına təsiri, eləcə də innovativ yanaşmaların və qabaqcıl beynəlxalq təcrübələrin paylaşılması ilə bağlı aktual məsələlər ətrafında müzakirələr aparılıb.

# "Regionda ciddi proseslər gedir"

## Siyavuş Novruzov: "Ermənistan konstitusiyasından ərazi iddiaları məsələsi çıxarılmalıdır ki, ondan sonra sülh müqaviləsi imzalansın"

***Milli Məclisin Regional məsələlər komitəsinin sədri, deputat Siyavuş Novruzov "Unikal"a müsahibə verib. O, Naxçıvan Muxtar Respublikasının status məsələsindən, referendumun nə zaman keçirilə biləcəyindən, deputatların sayının artırılmasından, Naxçıvanda hansı struktur islahatlarının aparıla biləcəyindən və başqa məsələlərdən danışıb.***

***-Siyavuş müəllim, parlamentin yaz sessiyasının ilk plenar iclasında Naxçıvanın statusu məsələsi ilə bağlı fikirlər səsləndirildi. Naxçıvanın Muxtar Respublika statusu ləğv edilə bilərmi?***

-Regionda ciddi proseslər gedir. İran-ABŞ münasibətlərini, Rusiya-



Ukrayna müharibəsini qeyd edə bilərik. Belə bir vaxtda statusla bağlı addım atılmasını müzakirə etməyə ehtiyac olmadığını düşünürəm. Bu, hazırda heç bir problem yaratmır. Nə vaxt referendum olar, məsləhət bilinər və gündəmə çıxarılarsa, o zaman bu məsələyə baxıla bilər. Bu, referendum yolu ilə həll olunmalıdır. Hesab edirəm ki, hazırda buna ehtiyac yoxdur.

***-Siz parlamentdə çıxışınızda qeyd etdiniz ki, Naxçıvan 3 dövlətlə sərhəddədir və baş verənlər Naxçıvana da təsirsiz ötüşmür. Hazırkı vaxtda hansı addımların atılmasına ehtiyac var?***

-Naxçıvanda işlər sürətlənməlidir. Naxçıvandan İğdıra gedən dəmir yolunun çəkilişini qeyd etmək istərdim. Eyni zamanda, Ermənistanın sərhəddinə qədər olan yollar təzələnməlidir. Belə ki, Zəngəzur dəhlizi açıldıqdan sonra orada infrastruktur tam yerində olsun. Burada dəmir yolu ilə yanaşı magistral yol da olacaq. Həmçinin, yaşıl enerji ilə bağlı Naxçıvanda böyük işlər gedir. Cənab Prezidentin təsdiq etdiyi "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" var. Bu proqramla bağlı vəsait ayrılıb. Bu proqramın tam şəkildə yerinə yetirilməsi zərurəti var. Hesab edirəm ki, bu işlərə daha çox üstünlük verilməlidir.

***-Ötən ilin noyabr ayında dövlət başçısının sərəncamı ilə Ceyhun Cəlilov Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsi təyin edilib. Qarşıdakı dövrdə Naxçıvanda hansısa yeni struktur islahatlarının olması gözlənilir?***

-Təbii ki, mərhələli şəkildə islahatlar gedir. Struktur islahatları ilə yanaşı, daha çox yeni iş yerlərinin açılmasına ehtiyac var. Orada iş yerlərinin bir çoxu bağlanmışdı. Yeni iş yerlərinin açılması, insanların işə cəlb olunması vacibdir. Naxçıvanın turizm mərkəzinə çevrilməsi ilə bağlı plan var. Hesab edirəm ki, bu işlərə üstünlük verilməsi struktur islahatlarından daha önəmlidir. Naxçıvanda insanlar işıq, qaz və internetlə tam şəkildə təmin olunub. İnsanları işlə təmin etmək lazımdır ki, öz fəaliyyətlərini davam etdirsinlər.

***-Fikirlərinizdə Naxçıvanın statusunun referendumla həll olunmasını qeyd etdiniz. Ermənistan tərəfi bildirib ki, yeni konstitusiyanın mətni mart ayında dərc olunacaq. Onlarda yeni konstitusiyanın qəbul olunmasından sonra ölkəmizdə də referendum keçirilə bilərmi?***

-Bizdə referendumla bağlı deputatların, ayrı-ayrı siyasi partiya rəhbərlərinin çıxışları olur. Qeyd etmək istərdim ki, konkret olaraq referenduma hansı məsələlər çıxarılmalıdır? Hələ bununla bağlı ortada fikir yoxdur. Regionlarda səlahiyyətli nümayəndələr təyin olunur. Bununla əlaqədar rayon icra hakimiyyətləri və s. məsələlər barədə fikirlər olur. Hesab edirəm ki, bununla bağlı yeni konsepsiyanın hazırlanmasına ehtiyac var. Seçki ilə bağlı müəyyən rəqəmlər var ki, Seçki Məcəlləsində öz əksini tapmalıdır. Bir neçə referendum keçirmişik və lazım olan düzəlişləri etmişik. Ermənistan konstitusiyasında ərazi iddiaları məsələsi çıxarılmalıdır ki, ondan sonra sülh müqaviləsi imzalansın. Ermənistan əsasən bu məsələ ilə əlaqədar referendum keçirəcək. Yəqin ki, özlərinin digər daxili məsələləri də ola bilər. Bizdə isə konkret olaraq referenduma hansı məsələlərin çıxarıla biləcəyi ilə bağlı proqram və ya yazılı şəkildə təklif qoyan yoxdur. Nə siyasi partiyalar, nə də hər hansı deputat tərəfindən ortaya bir məsələ çıxarılmayıb.

***-Bu günlərdə Azərbaycanda deputatların sayının artırılması ilə bağlı fikirlər səsləndirilir. Həmkarlarınız tərəfindən bu barədə danışanlar olur. Ölkəmizdə deputatların sayı artırıla bilərmi?***

-Ola bilər ki, müəyyən sayda artırılsın. Bilirsiz ki, əhalinin sayı artıb. Bizim deputatların sayı Ermənistan və Gürcüstandan azdır. Əhalimiz isə onlardan qat-qat çoxdur. Amma deputat sayı azdır. Əvvəllər bir deputata təxminən 35 min seçici düşürdüsə, indi bu say 45-50 mindir. Bununla əlaqədar olaraq məsələyə baxıla bilər. Amma bununla bağlı hələ ki, qərar yoxdur.

***-Fevralın 9-da Milli Məclisdə sizin sədri olduğunuz komitədə bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi müzakirə ediləcək. Məlum olduğu kimi, 2024-cü ildə Azərbaycanda 1400 bələdiyyə birləşdirildi və ümumi say 684-ə endirildi. Bələdiyyələrin sayının yenə də azaldılmasına ehtiyac varmı?***

-Təbii ki, bu mütəmadi olacaq. Bələdiyyələrin birləşdirilməsi və ayrılması ilə əlaqədar qanunumuz var. Bu səlahiyyətlər Milli Məclisə verilib. Az miqdarda ola bilər ki, müəyyən bələdiyyələrdə birləşmə prosesi getsin. Bu ilkin variantdır. Onlar da təzə seçilib. İşləsinlər və onların fəaliyyətinə baxılsın. Yaxın günlərdə yeni seçilmiş bələdiyyələrin bir illik fəaliyyətinə inzibati nəzarətlə bağlı qiymət veriləcək. Hesabatın əsasında baxaq görək gələcəkdə hansı addımları atmaq olur.

***Anar Kəlbiyev***

# Süleyman Mikayılovu gözləyən böyük təhlükə

## Sabiq icra başçısı vəzifəsindən azad olmaqla canını qurtara biləcəkmi?

***Xəbər verildiyi kimi, bu il yanvarın 30-da Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə Süleyman Mikayılov Bakı şəhəri Qaradağ Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilib.***

Qeyd edək ki, 64 yaşlı S. Mikayılov 2010-cu ildən Qaradağ Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsini tuturdu. Onun postunu itirməsinin səbəb, yaxud səbəbləri ciddi müzakirələrə səbəb olmuşdu. Çox keçmədən "Unikal" saytı məlumatlı mənbələrə istinadən xəbər yaydı ki, Mikayılovun işdən çıxarılmasına səbəb son dövrlər onun adının bir sıra cinayət işlərində hallanması ilə bağlı olub.

Bir müddət əvvəl icra başçısının müavinləri və digər bəzi rəsmi şəxslər barəsində hüquq-mühafizə orqanları tərəfindən cinayət işi başlanıb və onlar həbs ediliblər. Həmin vaxt Süleyman Mikayılovun saxlanılan şəxslərə istintaq prosesində onun adının çəkilməməsi ilə bağlı tapşırıq verdiyi, eyni zamanda onların ev dustaqlığına buraxılmasına kömək edəcəyinə söz verdiyi iddia olunur.

Lakin müəyyən müddət keçməsinə baxmayaraq, "vəd edilən addımlar atılmır". Bundan sonra həbs olunan şəxslərin aidiyyəti üzrə - o cümlədən prokurorluq orqanlarına müraciət edərək, baş verənlərlə bağlı şikayət etdikləri qeyd olunur.

Məhz bu müraciətlərdən sonra aparılan araşdırmalar zamanı Süleyman Mikayılovun adının prosesdə hallandığı və bunun da onun vəzifədən azad edilməsinə səbəb olduğu bildirilir.

Ancaq sabiq icra başçısı sözügedən xəbəri təkzib edib. O, "Qafqazinfo"nun əməkdaşı ilə söhbətində "Heç yerdə dindirilib eləməmişəm. Yalan məlumatdır. Nə prokurorluğa çağırılmışam, nə haradasa ifadə vermişəm" - deyib.

Lakin qaynaqlar Qaradağ Rayon İcra Hakimiyyətinin həbs edilən məmurlarının öz ifadələrində qanun pozuntuları ilə bağlı keçmiş icra başçısının adını çəkiblər. Bu isə Mikayılovun hüquqi məsuliyyət məsələsini bir daha gündəmə gətirir və onun hətta indiyədək dindirilməsə belə yaxın gələcəkdə istintaqa çağırılacağı ehtimalını qüvvətləndirir.



Qeyd edək ki, S.Mikayılov Azərbaycanın ən oliqarxlaşmış məmurlarından sayılır. Düzdür, o, 90-cı illərdə biznes fəaliyyəti ilə məşğul olub - "Səma" kiçik müəssisəsinin direktoru işləyib. Lakin sabiq icra başçısının əsl varlanma dövrü gömrük sistemində yüksək vəzifələr tutmağa başlaması ilə start götürüb. Belə ki, o, 1995-1999-cu illərdə Bakı Baş Gömrük İdarəsinin Qaçaqmalçılıq və Gömrük Qaydalarının Pozulmasına Qarşı Mübarizə şöbəsinin rəisi, idarə rəisinin birinci müavini, idərənin rəisi vəzifələrində çalışıb. 1999-2001-ci illərdə isə Dövlət Gömrük Komitəsinin İşlər İdarəsi rəisinin müavini işləyib. İddialar görə, həmin vaxt Mikayılov gömrük sistemində pula xüsusi həssaslığı ilə seçilib. Eyni vəziyyət onun Vergilər Nazirliyinin Operativ Nəzarət İdarəsinin rəisi işlədiyi zamanda da davam edib.

2005-ci ildə isə Mikayılovun karyerasında yeni yüksəliş və onun tam oliqarxlaşma dövrü başlayıb. Həmin il o, Yardımlı Rayon İcra Hakimiyyətinin başçısı, 2005-2010-cu illərdə isə Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı vəzifələrində çalışıb. 2010-cu ildə isə Bakının ən iri və mühüm rayonlarından sayılan Qaradağa rəhbərlik etmiş Mikayılov barədə bu müddətdə rüşvət və korrupsiya iddiaları, ittihamları mediada, cəmiyyət arasında adi hal alıb. Təsadüfi deyil ki, hazırda onun sərvəti yüz milyonlarca manatla ölçülür. Biznes imperiyasının böyük hissəsini isə 1994-cü il təvəllüdlü oğlu Elvin Mikayılov idarə edir. Onun adına çox sayda şirkət mövcuddur. Əsas şirkətlərdən biri "ASKORP" Məhdud Məsuliyyətli Cəmiyyətidir. Bu şirkət kərpic, daş, çınqıl istehsalı ilə məşğuldur.

Süleyman Mikayılov isə oliqarxlaşdığı yönündə iddialarla razılaşmır. Belə ki, 2022-ci ildə Boks Federasiyasının vitse-prezidenti vəzifəsindən uzaqlaşdırılmasının səbəbini o, ilginc şəkildə açıqlamışdı. Sitat: "Mən yenə də federasiyada qalıram, əlimdən gələn köməkliyi edəcəm. Kim deyirsə kasıb icra başçısıyam, ona görə uzaqlaşdırılıram, mən icra başçısıyam, 15 ildir bu vəzifəni daşıyıram, dövlətimizin pulu da var, federasiyalara pul da ayrılır".

Qayıdaq S.Mikayılovun hüquqi məsuliyyətə cəlb edilib-edilməyəcəyinə dair müzakirələrə... Hələlik iddialar bu yöndədir ki, sabiq icra başçısı ilə bağlı ibtidai araşdırmalar aparılır, onun əməlləri barədə ilkin məlumatlar toplanır. Həmin məlumatlarla həbs edilmiş məmurların ifadələrinin uzlaşdırılması Mikayılovla bağlı da istintaq orqanının konkret addımlar atmasını şərtləndirə bilər.

Bir sözlə, dindirilmədiyini deyən S.Mikayılovun rahatlaşması üçün əsas yoxdur. Onun həbsə atılan sabiq kadrları ilə bağlı cinayət işi səbəbindən keçmiş icra başçısının başı üstündəki qara buludların hər an daha da sıxlaşması istisna deyil. Yəni, çətin ki, Süleyman müəllim üçün proses yalnız vəzifəsini itirməklə başa çatsın...

***Sənan Mirzə***




# "Bəzi hüquq sahələri tarixə çevrilir" - Kamran Əliyev

***Ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurlu islahatlar həyata keçirilir. Dövlət və özəl sektor bir-birindən ayrı şəkildə səmərəli fəaliyyət göstərə bilməz. Dövlətimizin başçısının rəhbərliyi ilə Azərbaycanda dinamik inkişaf həyata keçirilir. Hüquq elmi cəmiyyətdə baş verən proseslərlə bağlı dəyişir, yeni hüquq sahələri meydana çıxıb.***

"Unikal" xəbər verir ki, bunu Baş prokuror Kamran Əliyev "LEGİS Hüquq Forumu"nda çıxış edərkən deyib.

Kamran Əliyev qeyd edib ki, bəzi hüquq sahələri tarixə çevrilir: "Qanunların qəbulu zamanı bir sıra faktorların nəzərə alınması vacibdir. Son zamanlar prokurorluğun kadr korpusunun tərkibini hüquqşünaslar təşkil edirlər. Ona görə də hüquq təhsilinin inkişafına bizim tərəfimizdən diqqət yetirilir.

Hüquq təhsilində tənqidi yanaşmalara üstünlük verilməlidir. Hüquqşünaslara qanunları texniki şəkildə tətbiq edən şəxs kimi baxa bilmərik. Hüquqşünas qanunun reallığını tutmalıdır. Həmçinin informasiya texnologiyalarının tətbiqinə ali təhsil müəssisələrində diqqət yetirilməlidir. Süni zəka insan zəkasına qarşı deyil. Biz süni zəkanı tətbiq etməklə öz zəkamızı artırırıq".

# İnam Kərimov məhkəmə-hüquq islahatlarının səbəbini açıqladı

***"LEGİS" Hüquq Forumu kimi platformalar dövlət, məhkəmə və biznes arasında açıq dialoq üçün etibarlı hüquqi mühitin formalaşmasına xidmət edir.***

Müasir dövrdə güclü iqtisadiyyat yalnız sərmayə və təşəbbüskarlıqla deyil, eyni zamanda, etibarlı, çevik və proqnozlaşdırıla bilən hüquq sistemi ilə formalaşır. Sahibkar üçün ən vacib məsələlərdən biri mübahisə yarandıqda ədalətli, şəffaf və operativ məhkəmə müdafiəsinə arxayın ola bilməsidir. Məhz bu etimad investisiya mühitinin əsas sütunlarından biridir.

"Unikal" xəbər verir ki, bunu Ali Məhkəmənin və Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov "LEGİS" Hüquq Forumunda çıxış edərkən deyib.

O qeyd edib ki, Azərbaycanda aparılan məhkəmə-hüquq islahatlarının mərkəzində də məhz bu məqsəd dayanır: "İxtisaslaşmış kommersiya məhkəmələrinin fəaliyyətə başlaması kommersiya mübahisələrinin daha peşəkar şəkildə baxılmasına, məhkəmə təcrübəsində vahid yanaşmanın formalaşmasına və qərarların hüquqi əsaslandırılmasının gücləndirilməsinə imkan verib. Deyə bilərəm ki, son illər məhkəmə aktlarının sabitliyinin yüksəlməsi bütövlükdə məhkəmə hakimiyyətinə olan inamın artmasına gətirib çıxarıb. Aparılan təhlillər kommersiya məhkəmələrinin icraatında olan mübahisələrin sayının ildən-ilə artdığını göstərir. Bu artım bir tərəfdən iqtisadi aktivliyin göstəricisi, digər tərəfdən isə sahibkarların məhkəməyə və ədalətli qərar gözləntilərinə olan etimadının ifadəsidir. Güclü dövlət anlayışı məhz vətəndaş və sahibkarların hüquqlarının qorunması ilə ölçülür. Bu baxımdan ölkəmizdə inzibati hüququn inkişafı Prezident İlham Əliyev tərəfindən daim vurğulanan "dövlət siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır" prinsipinin bariz təzahürüdür. Bununla belə, inzibati məhkəmə icraatı sahəsində yeni mərhələyə uyğun islahatlara ehtiyac qalmaqdadır. Bu islahatlar həm tətbiq zamanı yaranan çətinlikləri aradan qaldırmalı, həm də müasir çağırışlara uyğunlaşmanı təmin etməlidir".

05_27 IYUl-QARA.qxd 2/5/2026 10:31 PM Page 9





# Azərbaycanda terror planlaşdıran şəxslərə ağır cəza

***Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılan, Azərbaycanda fəaliyyət göstərən dini icmalardan birinin üzvünə qarşı terror aktı planlaşdırmaqda təqsirləndirilən Aqil Aslanov və Ceyhun İsmayılovun cinayət işi üzrə məhkəmənin yekun prosesi keçirilib.***

Sumqayıt Ağır Cinayətlər Məhkəməsində hakim Nurəddin Hüseynlinin sədrliyi ilə keçirilən prosesdə hökm elan olunub. Hökmə əsasən, Aqil Aslanov 17 il, Ceyhun İsmayılov isə 14 il müddətinə azadlıqdan məhrum ediliblər.

Qeyd edək ki, DTX tərəfindən keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində Azərbaycanda fəaliyyət göstərən dini icmalardan birinin üzvünə qarşı terror aktı planlaşdırmış Gürcüstan vətəndaşı Aslanov Aqil Göycə oğlu və Azərbaycan Respublikasının vətəndaşı İsmayılov Ceyhun Şahin oğlu saxlanılıblar.

Narkotik vasitələrin qaçaqmalçılığı ilə məşğul olan Aqil Aslanov 2024-cü ilin sentyabr ayında üçüncü ölkədə səfərdə olarkən, tanışı vasitəsilə həmin ölkənin xüsusi xidmət orqanının əməkdaşları ilə görüşüb və həmin şəxslər Azərbaycanda olan dini icma üzvünün fotoşəkillərini Aqil Aslanova göstərib barəsində məlumat verərək 200.000 ABŞ dolları müqabilində ona sui-qəsd edilməsini təklif ediblər.

Qarşılıqlı razılıq əsasında Aqil Aslanova ilkin olaraq icma üzvü və onun iş yeri barədə zəruri kəşfiyyat məlumatlarının toplanılaraq onlara ötürülməsi tapşırılıb, bunun üçün isə 2.000 ABŞ dolları məbləğində avans təqdim edilib.

Tapşırığın icrası ilə bağlı Bakı şəhərinə gələn Aqil Aslanov maddi maraq müqabilində cinayət əməllərində iştiraka cəlb etdiyi Ceyhun İsmayılovla birgə dini icma üzvü barədə məlumatların toplanılması istiqamətində işlər görüblər, onun yaşayış və iş yerinin məkan göstəricilərini müvafiq mobil telefon tətbiqi vasitəsilə xarici xüsusi xidmət orqanı nümayəndəsinə göndəriblər.

Faktla əlaqədar DTX-də Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 28 (cinayətə hazırlıq) 214.2.1 (terrorçuluq, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədildikdə) 274-cü (dövlətə xəyanət), 276 (casusluq), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə) və digər maddələri ilə istintaqı aparılan cinayət işi üzrə məhkəmə tərəfindən Aqil Aslanov və Ceyhun İsmayılov barəsində həbs qətimkan tədbiri seçilib.

# Bu il 8 min müəllim attestasiyaya cəlb olunacaq

***Bu il 9 bölgə üzrə Mədəniyyət Nazirliyinin tabeliyindəki təhsil müəsisələrində attestasiya prosesi aparılacaq.***

“Unikal” xəbər verir ki, bunu nazirliyin Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin direktor müavini Yaşar Zeynalov jurnalistlərə açıqlamasında deyib.

Onun sözlərinə görə, ümumilikdə, il ərzində 8 min müəllimin attestasiyaya cəlb olunacağı planlaşdırılıb.

Nazirlik rəsmisi builki attestasiya prosesinin fevralın 10-da başlanılacağını və prosesin iyul ayına qədər yekunlaşacağını bildirib: ”Yalnız Naxçıvandakı təhsil müəsisəsələrinin təhsilverənləri üçün attestasiya ilin sonunda keçiriləcək”.

# Sabiq nazirə 8 milyon manatlıq şokun pərdəarxası

## Füzuli Ələkbərov saysız-hesabsız tenderlər udmasına baxmayaraq niyə külli miqdarda borca düşüb? - İlginc təfərrüatlar

***Yola salmaq üzrə olduğumuz həftə sabiq əmək və əhalinin sosial müdafiəsi naziri Füzuli Ələkbərovla bağlı maraqlı xəbər yayıldı. Xəbərdən aydın olurdu ki, keçmiş nazirə məxsus ”İmprotex Group”a daxil olan ”İmprotex Trucks & Buses” və ”İmprotex İndustries” şirkətlərinin dövlət qarşısında yenidən külli miqdarda vergi borcu yaranıb.***

Məlumata görə, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Bakı şəhəri Lokal Gəlirlər Baş İdarəsinə ”İmprotex Trucks & Buses” şirkətinin 6,5 milyon manatdan, ”İmprotex İndustries” şirkətinin isə 1,8 milyon manatdan artıq vergi borcu mövcuddur (İqtisadiyyat.az).

Xatırladaq ki, ”İmprotex” şirkətlər qrupu 1991-ci ildə yaradılıb. F.Ələkbərov nazir işlədiyi müddətdə holdinqə onun həyat yoldaşı - İradə Ələkbərova rəhbərlik edib. Hazırda şirkətlər qrupuna ”İmprotex Trucks & Buses”, ”İmprotex Industries”, ”Improtex Motors” və ”Imagro” kimi törəmə şirkətlər daxildir. Bu şirkətlərin əməkdaşlıq etdiyi dünya brendlərinə ”Rolls Royce”, ”BMW”, ”MAN Truck & Bus SE”, ”Bobcat”, ”Massey Ferguson”, ”Hardox” və başqa bir neçə dünya nəhəngləri daxildir.

”Improtex” şirkətlər qrupunun bir qolu olan ”İmprotex Trucks & Buses” şirkəti 2005-ci ildən dünya şöhrətli ”MAN Truck & Bus SE” şirkətinin Azərbaycanda eksklüziv strateji partnyoru, Bobcat və bir sıra tikinti-daşıma sahəsi üzrə brendlərin rəsmi idxalçısıdır. Şirkətin qanuni təmsilçisi Orxan Ərəbovdur.

”İmprotex İndustries” şirkəti isə 2010-cu ildə dövlət qeydiyyatına alınıb və qanuni təmsilçisi Ruslan Ələkbərovdur. R.Ələkbərov sabiq nazirin qardaşı oğludur. 2013-cü ildən şirkətin metal konstruksiya və yük maşını üst qurğularını, həmçinin kənd təsərrüfatı qoşqularını istehsal edən zavodu fəaliyyətə başlayıb.

Xatırladaq ki, 2013-cü ildə İsmayıllı rayonunun sabiq İcra başçısı Nizami Ələkbərovun oğlu Elxan Ələkbərov və qardaşı, keçmiş Əmək və Əhalinin Sosial Müdafiəsi (ƏƏSMN) naziri Füzuli Ələkbərovun oğlu Vüqar Ələkbərovun “Hummer” markalı maşını ilə İsmayıllı şəhərindəki ”Çıraq” otelindən çıxarkən taksi sürücüsünün maşınını vurmuşdu. Daha sonra yaranan mübahisədə Elxan Ələkbərov sürücüləri söymüş, təhqir eləmişdi. Bu isə İsmayıllıda yerli əhalinin qəzəbinə səbəb olmuş və iğtişaşlara səbəb olmuşdu. Nəticədə öncə Nizami Ələkbərov, çox keçmədən isə Füzuli Ələkbərov vəzifəsindən azad olunmuşdu.



Bundan sonra sabiq nazirin biznesi xeyli zəifləmişdi. Lakin son illərdə F.Ələkbərovun şirkətləri xeyli fəllaşıb və ƏƏSMN-in keçmiş rəhbəri ard-arda tenderlər udmağa başlayıb. Bir müddət öncə yerli KİV yazıb ki, ”İmprotex Motors” şirkəti satınalma müsabiqələrində fəal iştirak edir və teztez qalib seçilir. Araşdırmalar zamanı məlum olub ki, şirkət təkcə 2025-ci ildə 53 satınalma müqaviləsi imzalayıb. Bu müqavilələr ”İmprotex Motors”un rəsmi distribütoru olduğu avtomobil şirkətlərinin istehsal etdiyi maşınların satışı, yaxud da onlara texniki servis xidmətinin göstərilməsi ilə əlaqədardır. ”İmprotex Motors” şirkətinin sifarişçiləri Dövlət Şəhərsalma və Arxitektura Komitəsindən tutumuş Əqli Mülkiyyət Agentliyinə qədər ən müxtəlif dövlət qurumlarıdır.

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin reyestr məlumatlarına görə, ”İmprotex Motors” MMC 10 iyul 2004-cü ildə qeydiyyata alınıb. Nizamnamə kapitalı 5325 manatdır. Şirkətin hüquqi ünvanı Bakı şəhəri Nəsimi rayonu, 20 yanvar küçəsi, ev 33-də yerləşir. MMC-nin qanuni təmsilçisi birbaşa Füzuli Ələkbərovdur.

“Qaynarinfo” yazıb ki, Füzuli Ələkbərov bu şirkəti təsis edəndə nazir vəzifəsində çalışmırdı. Bu baxımdan, ”İmprotex Motors” MMC o qədər də populyar deyildi. O, 2006-cı ildə nazir vəzifəsinə təyin edildikdən sonra biznesi də çiçəklənməyə başlayıb və ”İmprotex Motors” MMC ölkənin ən aparıcı şirkətlərindən birinə çevrilib.

MMC-nin rəsmi saytında qeyd edilib ki, şirkət BMW, ”BMW Motorrad”, MINI, ”Rolls-Royce” və ”Yamaha” kimi məşhur markaların Azərbaycanda rəsmi və eksklüziv idxalçısıdır.

Belə aydın olur ki, Füzuli Ələkbərovun şirkətləri arasında maliyyə vəziyyəti baxımından kəskin fərqlər var. Bu şirkətlərdən bəziləri borc içində çapalayarkən, bəziləri isə sabiq nazirə böyük qazanc gətirir.

Əslinə qalsa, borclu şirkətlər də tenderlərdən kənarda qalmırlar. Məsələn, “Unikal”ın araşdırması zamanı aydınlaşıb ki, ”İmprotex Trucks and Buses” şirkəti ötən ilin yayında özüboşaldan yük maşınlarının alınması ilə bağlı keçirilən tenderin qalibi seçilib. ”Naxçıvan Yol Təchizat” MMC ilə bağlanan satınalma müqaviləsinin maliyyə dəyəri isə nə az, nə çox, 7 milyon manat, daha dəqiq desək, 6 952 560 manat” olub.

Araşdırmamız zamanı aydınlaşıb ki, həmin vaxt Füzuli Ələkbərovun şirkətinin 360 146 manat vergi borcu varmış. Lakin bu, ”İmprotex Trucks and Buses”in qalib seçilməsini əngəlləməyib. Məsələ burasındadır ki, qanunvericiliyə görə, vergi borcu olan şirkətlər ümumiyyətlə tenderdə iştirak edə bilməz.

Daha bir maraqlı məqam: səkkiz ay əvvəl sabiq nazirin şirkətinin cəmi 360 min manat vergi borcu varkən, necə olub ki, indi həmin borc 6,5 milyon manatı ötüb? Kifayət qədər ilginc və suallar doğuran məqamdır. Lakin nə Ələkbərov, nə də onun borclu şirkətindən bu barədə münasibət öyrənmək mümkün deyil. Səbəb ƏƏSMN-nin keçmiş rəhbərinin mediadan uzaq durmağa üstünlük verməsidir. Hərçənd, bir neçə ildir çox sayda böyük məbləğli tenderlər udmağa, büdcə vəsaitləri əldə etməyə başlayan eks-nazir və onun holdinqinin ortadakı təzadlı məqamlara aydınlıq gətirməsi vacibdir...

***Sənan Mirzə***

05_27 IYUl-QARA.qxd 2/5/2026 10:31 PM Page 10



# Sabiq icra başçısı və oğlunun Rumıniya macərasının gizlinləri...

Vəzifədə ikən özünü Roma imperatorlarına bənzədən Tahir Kərimovla bağlı yeni qalmaqal - Bir gündə alınan 40 villanın pulu hardandır?

***Son günlərin ən çox müzakirə olunan mövzularından biri Azərbaycan mənşəli biznesmen Umid Abuzərlinin Rumıniyada 40 villadan ibarət iri daşınmaz əmlak kompleksi almasıdır. Əslində bir biznesmenin ölkə daxilində və kənarında hansısa mal-mülk sahibinə çevrilməsində təəccüblü, müzakirə ediləsi heç nə yoxdur. Əlbəttə, əgər işin içində məmur barmağı yoxdursa!***

Elə Ümid Abuzərli ilə bağlı məlum xəbər də normal halda sadəcə xəbər olaraq qalmalı idi. Amma...

Amma məsələ orasındadır ki, adıçəkilən şəxs Salyan Rayon İcra Hakimiyyətinin keçmiş başçısı Tahir Kərimovun oğludur. Xəbərin detallarından aydın olur ki, Rumıniyada məlum 40 villanın alışı Kərimovun oğlu tərəfindən yaradılmış şirkət vasitəsilə həyata keçirilib.

Belə ki, Ü.Abuzərlinin yaratdığı "Memaar Capital" şirkəti Rumıniyanın Pipera şəhərində yerləşən və əvvəllər iş adamı Corce Bekalinin ailəsinə məxsus olan 40 villalı yaşayış kompleksini, həmçinin yerli milyonçu Ioan Peykanın qızına məxsus digər daşınmaz əmlak layihəsini satın alıb.

Xatıqladaq ki, Tahir Kərimov 2011-ci ildə Salyan rayon İcra Hakimiyyətinin başçısı vəzifəsinə təyin edilmiş, 2016-cı ildə isə bu postdan azad olunmuşdu.

Tahir Kərimov 2015-ci ildə baş vermiş qalmaqaldan sonra geniş tanınmışdı - sosial şəbəkələrdə yayılan fotolarda o, Salyanda keçirilən bir tədbirdə "Roma imperatoru"na bənzər şəkildə, çiçək çələnglərindən ibarət tağın altından keçirdi və həmin çələngləri yerli məktəblilər tuturdu.

O zaman bu hadisə ölkədə böyük səs-küyə səbəb olmuş və Tahir Kərimovin vəzifədən uzaqlaşdırılmasına gətirib çıxarmışdı.

T.Kərimov daha əvvəllər Z. Tağıyev adına Balıqhisləmə zavodunun direktoru, "Caspian Fish" LTD şirkətinin baş direktoru vəzifəsində işləmişdi. Daha sonra Daşkəsən rayon İcra Hakimiyyətinə rəhbərlik etmiş, oradan da Salyana gətirilmişdi.

Onun oğlu Ümid Abuzərli sonradan soyadını dəyişərək babasının adını götürüb. Qardaşı Həmzə Kərimov isə 2007-2024-cü illər arasında SOCAR Petroleum SA şirkətinə rəhbərlik edib. Maraqlıdır ki, o bu vəzifəyə təyin olunanda cəmi 23 yaşı olub.

"Memaar Capital" Rumıniya bazarında bir neçə ildir fəaliyyət göstərir. Şirkət 2022-ci ildə başqa adla təsis olunub, daha sonra adını dəyişib. Bu gün şirkət üç yaşayış kompleksində 86-dan çox evə sahib olduğunu və daşınmaz əmlak sahəsində uzunillik təcrübəyə malik olduğunu bəyan edir.

Yeni layihə Harmony Homes adlandırılıb. Burada hər birinin təxminən 134 kvadratmetr sahəsi olan iki mərtəbəli 40 villa yerləşir. Kompleksin ilk mərhələsi "Alexander Residence" adı ilə əvvəlki sahiblər tərəfindən 2021-ci ildə satışa çıxarılmışdı, ikinci mərhələ isə tamamilə Memaar Capital şirkətinin nəzarətinə keçib.

Ü.Abuzərli 40 villa alması ilə bağlı xəbərlərə əndrəbadi reaksiya verib. O, həmin villaların alınması üçün pulu hardan əldə etdiyinə aydınlıq gətirmək əvəzinə ailəlikcə hakimiyyətə siyasi sədaqətlərini qabartmağa üstünlük verib. Lakin bu zaman bir neçə nüansı unudub.

Əvvəla, yaddan çıxarıb ki, ölkə rəhbərliyinin birbaşa iradəsi altında son illərdə Azərbaycanda idarəçilik sisteminin şəffaflaşdırılması və sağlamlaşdırılması istiqamətində genişmiqyaslı işlər görülür. Və bu prosesin mahiyyəti sabiq icra başçısından, onun oğlundan bir ölkədə bir dəfəyə 40 villanı necə, hansı resurslar hesabına ala bildiklərini açıqlamağı tələb edir. Necə deyərlər, Tahir Kərimov və övladı bu dəyirmanın suyunun haradan gəldiyini ortaya qoymalıdırlar? Ü.Abuzərli cəmiyyəti inandırmalıdır ki, atası vaxtilə icra başçısı olmasaydı da, indiki sərvətin sahibinə çevrilə bilərdilər?

Digər tərəfdən, Prezident öz çıxışlarında dəfələrlə məmurlara xəbərdarlıq edib, onlara özlərini təvazökar, sadə aparmağı, xalqa xidməti üstün tutmağı tapşırıb. "Rəhbər vəzifədə çalışan hər bir şəxs, hər bir məmur təvazökar olmalıdır. Həyatda, məişətdə özü, onun yaxın qohumları özlərini elə aparmalıdırlar ki, bizim ümumi işimizə heç bir irad tutulmasın... Əfsuslar olsun ki, bəzi hallarda məmurlar özlərini cəmiyyətdə düzgün apara bilmirlər, ifrat dərəcədə təkəbbürlülük göstərirlər, özlərini hamıdan üstün tutmağa çalışırlar və beləliklə, həm öz nüfuzlarını itirirlər, eyni zamanda, dövlətimizə, dövlətin siyasətinə də ləkə vurmuş olurlar" - ölkə başçısı tarixi çıxışlarından birində konkret olaraq bildirmişdi. Elə isə sabiq icra başçısının oğlu hansı siyasi sədaqətdən danışır ki, vaxtilə atası özünü "Roma imperatoru" qiyafəsinə salmışdı? Yaxud, Salyana icra başçısı təyinatından bir müddət sonra ağlasığmaz vardövlətə yiyələnmişdi: ucsuz-bucaqsız torpaqlar, villalar, mənzillər, restoranlar, hotellər, balıq vətəgələri, yanacaqdoldurma məntəqələri, daha nələr, nələr... Hələ dövlət büdcəsindən Salyanın sosial-iqtisadi inkişafına yönəlmiş on milyonlarla manatın qaranlıq aqibətinə dair iddiaları demirik. Bütün bunlar fonunda Tahir Kərimov və ailəsinin siyasi sədaqətdən danışmağa hansı mənəvi haqqı çatır?!



Dövlət vəzifəsində olub sərvət hərisliyinə tutulanların, oturduqları postdan faydalanıb oliqarxlaşanların siyasi sədaqətdən danışması ikiüzlülükdən başqa bir şey deyil. Biz bunu indiyədək anti-korrupsiya əməliyyatları çərçivəsində qandallanan vəzifəlilərin timsalında görmüşük. Odur ki, T.Kərimov da, oğlu da Rumıniyadakı mülklər barədə poetik gəvəzəliyi bir kənara qoyub cəmiyyətin gözlədiyi suala cavab verməlidirlər: təkcə bir ölkədə və bircə gündə alınan 40 villanın pulu haradandır?!

***Toğrul Əliyev***



# Elm və təhsil naziri BƏƏ-də bir sıra görüşlər keçirdi

***Elm və təhsil naziri Emin Əmrullayev Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilən Dünya Hökumət Sammiti çərçivəsində bir sıra görüşlər keçirib.***

"Unikal" xəbər verir ki, nazirin Gürcüstanın təhsil, elm və gənclər naziri Givi Mikanadze ilə görüşündə iki ölkə arasında elm və təhsil sahəsində əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri müzakirə edilib. Tərəflər ali təhsil müəssisələri arasında birgə layihələrin həyata keçirilməsini, tələbə və müəllim mübadiləsinin genişləndirilməsini, eləcə də STEAM sahəsində əməkdaşlığın davam etdirilməsini müzakirə ediblər.

Bundan başqa, Emin Əmrullayev Serbiya Respublikasının təhsil naziri Dejan Vuk Stankoviç ilə görüşüb. Görüş çərçivəsində iki ölkə arasında təhsil sahəsində cari əməkdaşlıq və gələcək inkişaf perspektivləri müzakirə edilib.

Birləşmiş Ərəb Əmirliklərinin insan resursları və əmirlik naziri, ali təhsil və tədqiqat naziri vəzifəsini icra edən Abdulrahman Al Avar ilə görüş zamanı isə BƏƏ və Azərbaycan arasında ali təhsil və elm sahəsində həyata keçirilməsi nəzərdə tutulan birgə təşəbbüslər daxil olmaqla, iki ölkə arasında bu sahələrdə əməkdaşlıq üzrə ətraflı müzakirələr aparılıb.

# Avtobus idarə edəcək qadın sürücülərin sayı artırılır

***Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA) avtobus idarə edəcək daha 6 qadın sürücüyə təlimlər keçir.***

"Unikal" AYNA-ya istinadən xəbər verir ki, Agentlik qadın sürücülərin peşəkar bacarıqlarını artırmaq, onların ictimai nəqliyyat sektorunda aktiv iştirakını və məşğulluğunu təmin etmək məqsədilə paytaxtda avtobus idarəetmə təlimlərini davam etdirir. Proqram çərçivəsində namizədlər avtobus sürücüsü kimi peşəkar fəaliyyətə başlamaq üçün nəzəri və praktiki cəhətdən hazırlıq keçirlər.

Layihənin birinci mərhələsində 3 xanım təlim və imtahanları uğurla tamamlayaraq artıq avtobus sürücüsü kimi fəaliyyət göstərir. Hazırda davam edən ikinci mərhələdə isə 6 xanım namizəd təlim prosesində iştirak edir.

Təlim proqramı avtobusları idarəetmə bacarıqları ilə yanaşı, davranış psixologiyası, sərnişindaşıma qaydaları və hərəkət təhlükəsizliyi üzrə mövzuları əhatə edir.

Qadın avtobus sürücüsü vakansiyası üzrə qəbul prosesi davam edir.

# "Uğurlu Dad" kolbasa sexində nöqsanlar aşkarlandı

***Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları Abşeron rayonu, Mehdiabad qəsəbəsi, A.Ələsgər küçəsi 4 ünvanında fəaliyyət göstərən, fiziki şəxs Cəfərquluyeva Gülü Ədalət qızına məxsus "Uğurlu Dad" əmtəə nişanlı kolbasa istehsalı müəssisəsində yoxlama keçirib.***

Agentlikdən "Unikal"a verilən məlumata görə, baxış zamanı istehsal müəssisəsinin qanunsuz fəaliyyət göstərdiyi aşkarlanıb. Həmçinin texniki normativ hüquqi aktların tələblərinin pozulduğu müəyyən edilib.

Faktla bağlı müəssisənin fəaliyyəti məhdudlaşdırılıb, rəhbəri barəsində inzibati qərar qəbul edilərək cərimə tətbiq olunub.

## "Azərbaycan mədəniyyəti fenomen kimi ortaya qoyulub" - Adil Kərimli



***Qüdrətli Azərbaycan dövlətinin formalaşmasında mədəniyyət amilinin ciddi rolu olmuşdur. Ulu Öndərin dövlətçilik fəlsəfəsinin əsasında mədəniyyət faktoru durub. Müasir çağırışlara uyğun olaraq Prezident İlham Əliyevin rəhbərliyi ilə bu sahəyə yeni baxış təqdim edilib. Belə ki, Prezident İlham Əliyev yanvarın 14-də "Azərbaycan Mədəniyyəti - 2040" Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb. Bu konsepsiya bütövlükdə Azərbaycan cəmiyyətinə olan strateji baxışdır.***

"Unikal" xəbər verir ki, bunu mədəniyyət naziri Adil Kərimli "LEGİS Hüquq Forum"unda çıxış edərkən deyib.

Nazir qeyd edib ki, uzun illər mədəniyyət incəsənətlə bərabər məfhum kimi götürülürdü: "Bu gün Azərbaycan mədəniyyəti hər kəsin həyat tərzinə çevrilməli olan sosial fenomen kimi ortaya qoyulub. Mədəniyyət və hüququn qarşılıqlı əlaqəsinə gəlincə isə qeyd edə bilərəm ki, hüquq mədəniyyət hadisəsidir. Hüququn mənbəyi mədəniyyətdir. Nə qədər texnologiyalar inkişaf etsə də, hüquqşünasın fəaliyyəti yaradıcılığa bağlıdır. Hüquq yaradıcılığa bağlı olan bir fəaliyyətdir. Dilimizin saflığının qorunmasında da hüquqşünasların rolu vacibdir".

## Ədliyyə naziri regionlardakı hüquqşünas çatışmazlığından danışıb



***Həqiqətən də, "LEGİS Hüquq Forumu" cəmiyyəti və hüquq ictimaiyyətini maraqlandıran bir platformadır. Hüquq təhsilinin mahiyyəti bütövlükdə hüquq sistemində həyata keçirilən islahatların təməlində duran amil kimi qiymətləndirilməlidir. Hüquq təhsilinin keyfiyyətində olan boşluqlar sonradan ədalət mühakiməsi və normayaratma prosesində olan boşluqlara çevrilir. Hər şeyin kökü hüquq təhsilindən qaynaqlanır.***

"Unikal" xəbər verir ki, bunu ədliyyə naziri Fərid Əhmədov "LEGİS Hüquq Forum" unda çıxış edərkən deyib.

Nazir hüquq təhsilində kəmiyyət və keyfiyyət elementi ilə bağlı fikirlərini də bölüşüb: "Bu gün təhsil müəssisələri əmək bazarına hər il 1400 hüquq məzunu buraxır. Bunların 600-ü ixtisaslaşmış təhsil müəssisələrindən məzun olurlar. Bu şəxslərin sonradan əmək bazarına daxil olma imkanları yaranır. Biz ölkədə vəkillərin sayına baxsaq, hər 100 min şəxsə 28 nəfər düşür. Bizdə təbii ki, vəkil olmayan hüquqşünaslar da var. Məhkəmədə mübahisələrin sayında artım var. Bu baxımdan hüquq təhsilinin səviyyəsi kəmiyyət baxımından xeyli aşağıdır. Kifayət qədər hüquqşünası əmək bazarına buraxa bilmərik. Regionlarda yeni hüquq fakültələri yarada bilərik. Regionlarda hüquqşünas çatışmazlığı ilə ciddi şəkildə üzləşirik. Bir sıra regionlarda biz icra məmuru tapa bilmirdik. Həmçinin ali məktəblərə qəbul planını artıra bilərik. Faktiki olaraq Hüquq fakültəsinə qəbul olunan tələbələrin minimum topladığı bal 600-dən yuxarıdır. 600 bal toplamış tələbə bitirdikdən sonra regionlarda işləməyəcək. Biz kəmiyyət problemini həll etdikcə, dərhal keyfiyyət problemi ilə üzləşirik. Tələbələrin sayı artdıqca dərs yükü artır, bu da müəllim sayının artması deməkdir. Əmək bazarında da kifayət qədər müəllim yoxdur. Biz kəmiyyəti keyfiyyətə çevirə bilmirik. Bu prosesdə müəllim heyətinin sayının artması istiqamətində ciddi işlər görməliyik. Təhsil proqramları uzun illərdir ki, dəyişmədən qalır. Hüququn təməl prinsiplərini anlamadan onun nəzəriyyəsini bilmək mümkün deyil. Hüquq nəzəriyyəsi isə dərslikdən tədris olunan fənn deyil".

# Özəl klinikalarda nəhəng yoxlama dalğası başladı

## Nöqsanların sayı-hesabı yoxdur, özbaşınalıqlar baş alıb gedir - Hansı qeyri-dövlət xəstəxanaları bağlanacaq?

***2026-cı ilin yanvar ayında Səhiyyə Nazirliyi Analitik Ekspertiza Mərkəzi tərəfindən 21 özəl tibb müəssisəsində yoxlama aparılıb. Bu barədə APA-nın sorğusuna cavab olaraq AEM-dən məlumat verilib.***

Bildirilib ki, bunlarda planlı 11, plandankənar 10 yoxlama aparılıb. Nəticədə 18 nöqsan aşkar edilib.

Ən çox rast gəlinən nöqsanlara həkimlərin sertifikasiya şəhadətnaməsi olmadan özəl tibb fəaliyyəti ilə məşğul olma faktı (25 hal), lisenziya şərtləri üzrə müəyyən nöqsanlar (6 hal), tibb müəssisəsinin sertifikasiya şəhadətnaməsi olmadan özəl tibb fəaliyyətinə işçilərin buraxılması faktı (6 hal), sertifikasiya şəhadətnaməsi olmadan və lisenziyadankənar özəl tibb fəaliyyəti ilə məşğul olma faktı (4 hal), lisenziyadan kənar iş və fəaliyyət (2 hal) daxildir.

Həmçinin yanvar ayı ərzində 6 stomatoloji klinikada yoxlama aparılıb.

Ən çox rast gəlinən nöqsanlar sırasına həkimlərdə sertifikasiya şəhadətnaməsi olmadan özəl tibb fəaliyyəti ilə məşğul olma faktı (6 hal), lisenziya şərtləri sualı üzrə müəyyən nöqsanlar (3 hal), lisenziyadan kənar iş və fəaliyyət (1 hal), tibb müəssisəsinin sertifikasiya şəhadətnaməsi olmadan özəl tibb fəaliyyətinə işçilərin buraxılması faktı (1 hal), sertifikasiya şəhadətnaməsi olmadan özəl tibb fəaliyyəti ilə məşğul olma faktı daxildir (1 hal).

"Unikal"ın əldə etdiyi məlumata görə, Səhiyyə Nazirliyi Analitik Ekspertiza Mərkəzinin özəl klinikalarda yoxlamaları qarşıdakı günlərdə də davam edəcək. Hətta bu təftişlərin nəticəsi olaraq bəzi qeyri-dövlət xəstəxanalarının bağlanması, yaxud fəaliyyətlərinin müvəqqəti dayandırılması da mümkündür.

Digər tərəfdən isə özəl klinikalarda aparılan yoxlamalar zamanı aşkarlanan nöqsanların aradan qaldırılmasının bir çox hallarda formal xarakter daşıdığı, qısa müddət sonra həmin nöqsanların yenidən müşahidə olunduğu yönündə iddialar var. Elə bu günlərdə diplomu və sertifikatı olmayan bəzi həkimlərin cəzalandırılmasına baxmayaraq əvvəl işlədikləri özəl klinikalarda, yaxud da başqa qeyri-dövlət tibb müəssisələrində fəaliyyətlərini hələ də davam etdirdiklərinə dair məlumat yayılmışdı. Bu məlumat özəl klinikalardakı yoxlamaların və bu yoxlamalar zamanı aşkarlanan nöqsanlarla bağlı cəzaların sərtləşdirilməsini ortaya qoyur.

Eyni zamanda belə iddialar da var ki, bəzi özəl klinikaların müəyyən nüfuzlu məmurlara (onlardan bəziləri hazırda vəzifədə olmasalar belə), deputatlara bağlılığı bu tibb müəssisələrinin rəhbərliyində arxayınlıq yaradır. Həmin klinikalar güclü himayədarlarına güvənərək, aşkarlanan nöqsanları bir müddət sonra davam etdirməkdən çəkinmirlər.

Hüquqşünaslar bildirirlər ki, Mülki Məcəlləyə əsasən, əgər işə qəbul zamanı saxta diplom, sertifikat və ya sənəddən istifadə olunarsa və müəssisə bu sənədləri bilərəkdən qəbul edərsə, bu zaman Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələrində nəzərdə tutulmuş cinayət əməlinin tərkibi yaranır. Həkimlərin işə qəbul qaydalarının pozulmasına görə özəl tibb müəssisələrinə Səhiyyə Nazirliyi tərəfindən inzibati tədbirlər də tətbiq edilə bilər. Belə bir məlumat daxil olduqda nazirlik müəssisəyə cərimə, lisenziya xəbərdarlığı və ya müvəqqəti fəaliyyətin dayandırılmasını tətbiq etmək hüququna malikdir. Sertifikatsız və ya lisenziyasız fəaliyyət aşkar edilərsə, klinikanın bağlanması mümkündür.

Lakin müşahidə edilən odur ki, saxta, diplomsuz, sertifikatsız həkimləri işə götürüb, faktiki olaraq əhalinin sağlamlığını təhlükəyə atan klinikalara qarşı xeyli yumşaq cəza tədbirləri seçilir. Ekspertlər bunu iki məqamla əlaqələndirirlər: ya həmin klinikaların güclü himayədarları var, ya da bu tibb müəssisələri ilə yoxlama aparan, cəza müəyyənləşdirənlər arasında hansısa sövdələşmə...

Məsələn, bu günlərdə Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzi "Vest Hospital"da yoxlama aparıb. Aparılan yoxlama zamanı pozuntular aşkarlanıb.

Belə ki, ümumi cərrahların plastik cərrahiyyə ixtisası üzrə sertifikasiya şəhadətnaməsi olmadan praktik tibb fəaliyyətinə buraxılması faktı aşkar edilib. Həmçinin müəssisədə tibbi qeydiyyat sənədləri Səhiyyə Nazirliyinin təsdiq etdiyi formalarla aparılsa da, qaydaların tələbləri təmin olunmayıb. Nəticədə "Vest Hospital" MMC-nin qanuni təmsilçisi Göyüşov Ramin Xəlil oğlu barəsində İnzibati Xətalar Məcəlləsinin 215.4-cü maddəsi ilə protokol tərtib olunub. Həmin maddə ilə vəzifəli şəxslər səkkiz yüz manatdan min manatadək, hüquqi şəxslər isə altı min manatdan səkkiz min manatadək məbləğdə cərimə edilir. İndiki halda Ramin Göyüşov ən yaxşı halda min manat cərimələnib, bu isə ölkənin tanınmış oliqarxlarından sayılan X.Göyüşovun oğlu üçün yəqin ki, "semiçka pulu"ndan başqa bir şey deyil.



Qısası, yoxlamalar və cəzalar özəl klinikaların yol verdikləri özbaşınalıqların mahiyyətinə, ağırlıq və təhlükəlilik dərəcəsinə adekvat olmayanda, biz bu tibb müəssisələrinin fəaliyyətində müsbətə doğru hansı dəyişikliyə ümid edək? Hansı məntiqlə özəl klinikaların sağlamlığımızı riskə atan, təhlükəli addımlardan çəkinəcəyini gözləyirik? Bu suallara əlaqədar dövlət qurumlarının ağlabatan və məntiqli cavablar verməsinin vaxtı çoxdan çatıb. Özü də lap çoxdan!..

***Sənan Mirzə***

05_27 IYUl-QARA.qxd 2/5/2026 10:32 PM Page 12



## 5.3.10. Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Gənclərdə milli ruhun oyanışı...

### Musa Rəhimov: "Vətənpərvərlik mövzusunda həyata keçirilən genişmiqyaslı tədbirlər arasında "Şahin" hərbi-idman oyununun da mühüm rolu var"



***Müasir dövrdə qloballaşma proseslərinin sürətləndiyi, informasiya axınının sərhədsiz xarakter aldığı bir şəraitdə gənc nəslin milli mənlik şüurunun formalaşdırılması xüsusi aktuallıq kəsb edir. Xalqın tarixi yaddaşına, milli-mənəvi dəyərlərinə və dövlətçilik ənənələrinə söykənən sağlam vətənpərvərlik hissləri cəmiyyətin dayanıqlı inkişafının əsas şərtlərindən biridir.***

Bu baxımdan gənclərin öz kimliyini dərk etməsi, ana dilinə, mədəniyyətinə, tarixinə və dövlət rəmzlərinə hörmət ruhunda yetişdirilməsi strateji əhəmiyyət daşıyır. Milli mənlik şüuru güclü olan gənclik təkcə bu günün deyil, həm də gələcəyin təminatçısıdır. Qəzetimizin bugünkü mövzusu məhz bu vacib məsələyə - gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi və milli dəyərlərə bağlılığının gücləndirilməsinə həsr olunub.

Bu mühüm vəzifənin həyata keçirilməsində isə ailə ilə yanaşı, məktəblərin üzərinə də böyük məsuliyyət düşür. Çünki məhz məktəb gənclərin dünyagörüşünün formalaşdığı, milli və ümumbəşəri dəyərləri mənimsədiyi əsas sosial institutlardan biridir.

Təhsil ocaqlarında tədris olunan fənlər, keçirilən tərbiyəvi tədbirlər, milli bayramların qeyd olunması və tarixi şəxsiyyətlərin tanıdılması şagirdlərdə Vətənə bağlılıq hissinin möhkəmlənməsinə xidmət edir. Müəllimin şəxsiyyəti, onun vətənpərvər mövqeyi və davranışı isə bu prosesdə xüsusi rol oynayır. Məktəblər yalnız bilik verən müəssisə deyil, eyni zamanda milli ruhun, dövlətçilik düşüncəsinin və vətəndaş məsuliyyətinin aşılandığı mühüm mərkəzlərdir.

Bu baxımdan məktəblərin gənc nəslin milli mənlik şüurunun formalaşdırılmasında oynadığı rol danılmazdır. Sağlam düşüncəli, vətənini sevən, tarixini və mədəniyyətini qoruyan gənclərin yetişdirilməsi məhz bu təhsil ocaqlarında qoyulan möhkəm təməllər üzərində mümkün olur. Bu istiqamətdə ümumtəhsil müəssisələrində hansı işlərin görüldüyü barədə soruğumuza Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyindən (MÜTDA) bildirdilər ki, təhsil müəssisələrində gənc nəslin vətənpərvər ruhda böyüməsinə xüsusi diqqət yetirilir.

Agentliyin İctimaiyyətlə əlaqələr sektorunun əməkdaşı Musa Rəhimov bildirdi ki, uşaq və yeniyetmələrin milli kimlik duyğusunu möhkəmləndirmək, azərbaycançılıq ideologiyasına sadiq, vətəninə bağlı, mənəvi dəyərlərə hörmətlə yanaşan vətəndaş kimi yetişməsini təmin etmək məqsədilə ümumi təhsil müəssisələrində milli-mənəvi dəyərlər, azərbaycançılıq və vətənpərvərlik ruhunda mütəmadi olaraq tədbirlər keçirilir.

Onun sözlərinə görə, tədbirlər çərçivəsində filmlər nümayiş etdirilir, mütaliə saatları, yaradıcılıq müsabiqələri, layihələr, görüşlər və ekskursiyalar təşkil edilir.

"Vətənpərvərlik mövzusunda həyata keçirilən genişmiqyaslı tədbirlər arasında "Şahin" hərbi-idman oyununun da mühüm rolu var. VIII-X sinif şagirdləri arasında keçirilən bu oyunun əsas məqsədi yeniyetmə və gənclərin hərbi vətənpərvərlik, milli ruhda tərbiyəsi işini daha da gücləndirmək, məktəblilərin hərbi hazırlıq səviyyəsini yüksəltmək, Çağırışaqədərki hazırlıq fənninin tədrisini daha da təkmilləşdirməkdən ibarətdir. 2021-2022-ci tədris ilindən etibarən bütün ümumi təhsil müəssisələrində 9-cu siniflər üzrə "Zəfər tarixi" kursu tədris edilir. Dərslikdə Qarabağın tarixi, rəşadətli Azərbaycan ordusunun vətən müharibəsində qazandığı parlaq qələbə gənc nəslə çatdırılır", deyə müsahibimiz bildirib.

Qeyd edək ki, 44 günlük müharibədə tarixi zəfərə imza atan qazilərimizin keçdiyi şərəfli döyüş yolu da gənc nəsil üçün xüsusi örnəkdir. Artıq məktəblərdə onların şagirdlərlə görüşü bir ənənəyə çevrilib.

Gənc nəslin milli mənlik şüurunun formalaşdırılması və vətənpərvərlik hisslərinin gücləndirilməsi prosesində qazilərlə görüşlərin təşkili xüsusi əhəmiyyət daşıyır. Bu cür görüşlər Vətən uğrunda canından və sağlamlığından keçmiş insanların həyat hekayələri vasitəsilə gənclərdə milli ruhun daha dərindən dərk olunmasına şərait yaradır. Qazilərin yaşadıqları döyüş xatirələri, göstərdikləri şücaət nümunələri və Vətənə sədaqətləri gənclər üçün canlı və təsirli nümunə rolunu oynayır.

Xüsusilə məktəblərdə təşkil olunan bu görüşlər şagirdlərin tarixi hadisələri yalnız dərslik səhifələrində deyil, real həyat hekayələri fonunda qavramasına imkan verir. Qazilərin səmimi söhbətləri, verdikləri tövsiyələr gənclərdə məsuliyyət hissini, dövlətə və xalqa bağlılığı daha da möhkəmləndirir. Belə tədbirlər vətənpərvərliyin sadəcə söz deyil, əməl və fədakarlıq olduğunu aydın şəkildə nümayiş etdirir.

Bu baxımdan qazilərlə görüşlər gənclərin mənəvi tərbiyəsində, milli dəyərlərə hörmət ruhunda formalaşmasında mühüm vasitə kimi çıxış edir və gələcək nəsillərdə sağlam vətəndaş mövqeyinin formalaşmasına güclü töhfə verir.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**




# 2025-ci ildə Samux rayonun iqtisadi və sosial inkişafının makroiqtisadi göstəriciləri

***İqtisadiyyatın əsas sahələrində 235017,3 min manatlıq məhsul və xidmətlər istehsal edilmişdir və əvvəlki illə müqayisədə 4,1 faiz çox olmuşdur. Ümumi məhsul buraxılışının çox hissəsini (68,4 faizini) kənd təsərrüfatı məhsulu təşkil etmiş və əvvəlki ilə nisbətən 2,3 faiz çox olmuşdur.***

Kənd təsərrüfatı məhsullarının istehsalı 160672,9 min manat olmuşdur ki, bunun da 82419,2 min manatını bitkiçilik, 78253,7 min manatını isə heyvandarlıq məhsulları təşkil etmişdir.

2025-ci ilin məhsulu üçün 11869,5 hektar payızlıq bitkilərin səpini aparılmış və əvvəlki ilə nisbətən 177,7 hektar və ya 1,5 faiz çox olmuşdur. Eyni ilə 5228,6 hektar sahədə yazlıq bitkilərin səpini aparılmışdır.

Yazlıq səpinin 598,5 hektarı və ya 11,4 faizi yem bitkiləri, 27,0 hektarı və ya 0,5 faizi yazlıq buğda, 113,8 hektarı və ya 2,2 faizi yazlıq arpa, 613,5 hektarı və ya 11,7 faizi tərəvəz, 2289,5 hektarı və ya 43,8 faizi günəbaxan, 128,0 hektarı və ya 2,4 faizi kartof, 369,5 hektarı və ya 7,1 faizi şəkər çuğunduru, 958,7 hektarı və ya 18,3 faizi qarğıdalı, 24,0 hektarı və ya 0,5 faizi tərəvəz (toxum üçün), 92,5 hektarı və ya 1,8 faizi bostan bitkiləri, 13,6 hektarı və ya 0,3 faizi paxlalı bitkilər olmuşdur.

Təsərrüfatlarda 46672,0 ton taxıl, o cümlədən 25828,9 ton buğda, 20843,1 ton arpa, 1495,4 ton kartof, 15029,1 ton tərəvəz, 19690,9 ton qarğıdalı, 4673,5 ton günəbaxan, 1712,9 ton bostan, 20115,0 ton şəkər çuğunduru, 40,6 ton paxlalı bitkilər, 4,1 ton darı, 23,0 ton tərəvəz (toxum üçün), 22098,4 ton meyvə, 11442,5 ton üzüm istehsal olunmuşdur.

Təsərrüfatlarda istehsal olunan tərəvəzin 3513,9 tonu istixanalarda yetişdirilmişdir.

1 yanvar 2026-cı il tarixinə 22519 baş iribuynuzlu mal-qara, 113363 baş qoyun və keçilər mövcud olmuşdur.

Hesabat dövründə diri çəkidə ət istehsalı 5842,0 ton, süd istehsalı 33459,0 ton, yumurta istehsalı 7812,0 min ədəd, yun istehsalı 234,2 ton olmuşdur.

2025-ci ildə sənayedə məhsul istehsalının və xidmətlərin həcmi 10,6 faiz artaraq 22550,8 min manat olmuşdur.

Hesabat dövrü ərzində tikinti təşkilatları tərəfindən görülən inşaat işlərinin həcmi 59,6 faiz artaraq 6484,1 min manat olmuşdur.

Hesabat dövründə əsas kapitala yönəldilmiş investisiyaların həcmi 16069,8 min manat olmuşdur.

Nəqliyyat və anbar təsərrüfatı sahəsində mal və xidmətlərin həcmi əvvəlki ilə nisbətən müqayisəli qiymətlərlə 66,4 faiz artaraq, 5861,8 min manata çatmışdır.

Rabitə sahəsi üzrə mal və xidmətlərin ümumi həcmi 366,4 min manat olmuşdur. Hesabat dövründə telefon çəkilişi olmamış və sabit şəbəkə telefonlarının sayı isə 1177 ədəd olmuşdur.

2025-ci ildə ticarət; nəqliyyat vasitələrinin təmiri sahəsi üzrə məhsul buraxılışının həcmi 39081,3 min manat olmuşdur.

Pərakəndə ticarət dövriyyəsi müqayisəli qiymətlərlə 122129,0 min manat olmuşdur.

Əhaliyə 45270,7 min manatlıq ödənişli xidmət göstərilmişdir ki, bu da əvvəlki ilə nisbətən müqayisəli qiymətlərlə 9,0 faiz çox olmuşdur.

Hesabat dövründə əhaliyə 5800,0 min manatlıq iaşə xidmətləri göstərilmişdir. Bu əvvəlki ilə nisbətən 895,5 min manat və ya müqayisəli qiymətlərlə 12,2 faiz çox olmuşdur.

2025-ci ilin noyabr ayının sonuna siyahı tərkibində olan işçilərin sayı 5647 nəfər və hər bir işçiyə düşən orta aylıq nominal əməkhaqqının məbləği 680,0 manat olmuşdur ki, bu da əvvəlki ilin müvafiq dövrünə nisbətən 8,4 faiz çox olmuşdur.

***Samux Rayon Statistika İdarəsi***

# Bu tarixdə magistraturaya qəbul imtahanı keçiriləcək

***Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin magistraturalarına qəbul imtahanı (I cəhd) 15 fevral 2026-cı il tarixində keçiriləcək.***

Bu barədə "Unikal"a DİM-dən məlumat verilib. Bildirilib ki, ali təhsil müəssisələrinin magistraturalarına qəbul imtahanında iştirak edəcək bakalavrlar "İmtahana buraxılış vərəqəsi"ni çap edə bilərlər.

Bakalavrlar "İmtahana buraxılış vərəqəsi" və "Yaddaş kitabçası"nı çap etmək üçün bu linkə daxil olmalıdırlar.

Qeyd edək ki, bakalavrlar imtahana gələrkən özləri ilə şəxsiyyəti təsdiq edən sənədin əsli və "İmtahana buraxılış vərəqəsi"ni mütləq gətirməlidirlər. Göstərilən sənədlərdən hər hansı biri olmazsa və ya sənədlər arasında uyğunsuzluq olarsa, bakalavr imtahana buraxılmır.

# Ucarda sənayenin göstəriciləri belə olub




***Sənaye müəssisələrində və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2025-ci ildə 15832,5 min manatlıq məhsul istehsal edilmiş əvvəlki ilin müvafiq dövrünə nisbətən sənaye istehsalı indeksi 109,6 faiz təşkil etmişdir.***

2025-ci ildə sənaye sahəsində istehsalın və xidmətlərin həcminin 4618,3 min manatı və ya 29,2 faizi dövlət sektorunun, 11214,2 min manatı və ya 70,8 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür. İstehsal və xidmətlərin həcminin 3691,7 min manatını və ya 23,3 faizini elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahəsi, 926,6 min manatını və ya 5,9 faizini su təchizatı, tullantıların təmizlənməsi və emalı sahəsi, 11214,2 min manatını və ya 70,8 faizini isə emal sənayesi sahəsi təşkil etmişdir.

***Ucar Rayon Statistika İdarəsinin aparıcı məsləhətçisi Cəlil Vəliməmmədov***

# 2025-ci ildə ticarət statistikası

***2025-ci ildə pərakəndə ticarət şəbəkələri tərəfindən əhaliyə 275603,3 min manatlıq və ya 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə real ifadədə 0,6 faiz çox istehlak malları satılmışdır.***

2025-ci ildə pərakəndə ticarət şəbəkələri tərəfindən əhaliyə satılmış ərzaq məhsulları, içkilər və tütün məmulatlarının həcmi 146864,0 min manat, qeyri-ərzaq mallarının həcmi 128739,3 min manat olmuş və əvvəlki ilə nisbətən real ifadədə ərzaq məhsulları, içkilər və tütün məmulatlarının həcmi 1,1 faiz azalmış, qeyri-ərzaq mallarının həcmi isə 3,4 faiz artmışdır.

***Ucar Rayon Statistika İdarəsinin baş məsləhətçisi Tural Əzizli***

**ELAN**

05.01.2010-cu il tarixində 060010-Q3-0010 nömrə ilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Ağsu rayon qeydiyyat şöbəsi tərəfindən Dövlət qeydiyyatına alınmış Padar Sudan İstifadə Birliyi və 05.01.2010-cu il tarixində 060010-Q3-0007 nömrə ilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Ağsu rayon qeydiyyat şöbəsi tərəfindən Dövlət qeydiyyatına alınmış Ərəbmehdibəy Sudan İstifadə Birliyləri ləğv olunaraq hüquqi şəxsləri qoşulma şəkilində yenidən təşkili (Birləşmə) formasında 05.01.2010-cu il tarixində 060010-Q3-0006 nömrəsi ilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Ağsu rayon qeydiyyat şöbəsi tərəfindən Dövlət qeydiyyatına alınmış Musabəyli Sudan İstifadə Birliyinin bazasına qoşulmuş (Birləşdirilmiş) və onun hüquqi varisidir.

21.04.2009-cu il tarixində 060009-Q2-0003 nömrə ilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Ağsu rayon qeydiyyat şöbəsi tərəfindən Dövlət qeydiyyatına alınmış Ağarx Sudan İstifadə Birliyi ləğv olunaraq hüquqi şəxsin qoşulma şəkilində yenidən təşkili (Birləşmə) formasında 21.04.2009-cu il tarixdə 060009-Q2-0002 nömrə ilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Ağsu rayon qeydiyyat şöbəsi tərəfindən Dövlət qeydiyyatına alınmış Daşdəmirbəyli Sudan İstifadə Birliyinin bazasına qoşulmuş (birləşdirilmiş) və onun hüquqi varisidir.

# Heydər Əliyev Mərkəzində "Vəhşi təbiətin super qəhrəmanları" sərgisi açılıb

***Fevralın 4-də Heydər Əliyev Mərkəzində təsirli ictimai sənət nümunələri yaradan məşhur sənətkarlar - britaniyalı və avstraliyalı heykəltaraşlar Cili və Mark Şatnerin (Gillie&Marc Schattner) "Vəhşi təbiətin super qəhrəmanları" (The Superheroes of Wildlife) adlı sərgisinin açılışı olub.***

"Unikal" xəbər verir ki, açılışda Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov, mədəniyyət naziri Adil Kərimli, incəsənət nümayəndələri və digər qonaqlar iştirak ediblər.

Bakı layihəsi müəlliflərin bu günədək təqdim etdikləri ən böyük sərgidir. Vəhşi təbiətin fədakar müdafiəçiləri kimi tanınan Cili və Mark yaradıcılıqları ilə incəsənəti təbiətin mühafizəsi üçün mühüm bir platformaya çeviriblər. Təşəbbüslər barədə ətraflı məlumat aldıq. Məhz bu amil bizi ölkəyə cəlb edən əsas səbəblərdən biridir. Çünki burada təbiətlə dərin və səmimi bir bağlılıq mövcuddur", - deyə o qeyd edib.

Açılış mərasimində çıxış edən Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov bildirib ki, Mərkəzdə Cili və Mark Şatnerin 100-ə yaxın əsəri sərgilənir. Onun sözlərinə görə, heykəltaraşların əsərləri dünyanın bir çox ölkəsində nümayiş etdirilib.

Anar Ələkbərov vurğulayıb ki, layihənin unikallığı məhz heykəltaraşların təbiətin qorunması istiqamətində gördükləri mühüm işlərdə öz əksini tapır və onların bu sahədə böyük rolu var.

O bildirib ki, "Vəhşi təbiətin super qəhrəmanları" sərgisi bir ildən artıq müddət ərzində fəaliyyət göstərəcək.

vincdir. Heykəltaraş ərsəyə gətirdikləri əsərlər barədə danışıb: "Əsərlərimiz elə qurulub ki, tamaşaçı onların üzərində otura, ətrafında gəzə və hətta toxuna bilərlər. Bu isə işimizin mahiyyəti baxımından əsərlərlə həm emosional, həm də fiziki təmas qurmağa imkan yaradır".

Heykəltaraşlar Cili və Mark Şatner, həmçinin vurğulayıblar ki, indiyə qədər ərsəyə gətirdikləri əsərlər bir məhəbbət hekayəsindən başlayıb. Belə ki, Cili və Mark Şatner cütlüyü təsadüfi görüş nəticəsində 1990-cı ildə Honkonqda bir filmin çəkiliş meydançasında tanış olublar. O dövrdə model olan Cili və kreativ direktor kimi çalışan Mark yeddi gün sonra ailə həyatı qurublar. "The New York Times" qəzeti onları "Nyu-York tarixində ən uğurlu və ən çox əsər yaradan ictimai sənət müəllifləri"



Sərgi vəhşi təbiətin qarşılaşdığı problemləri bir daha gündəliyə gətirməklə yanaşı, tamaşaçıya cəsarət və ümid dolu baxış bucağı təqdim edir.

Sərginin açılışından əvvəl heykəltaraş Cili Şatner jurnalistlərə bildirib ki, sərgidə əsas missiya sənət vasitəsilə vəhşi təbiətin qorunması və sevgi mesajlarını yaymaqdır.

"Məqsədimiz dünyanın müxtəlif ölkələrinə səyahətlərimiz zamanı əldə etdiyimiz təcrübələr əsasında tamaşaçıları nəsli kəsilmək təhlükəsi altında olan heyvanları qorumağa təşviq etməkdir. Biz heyvanları öyrənir, müşahidə edir, çəkir və təsvir edirik. Sərgidə nümayiş olunan bütün heykəllər real həyatda gördüyümüz heyvanlara əsaslanır", - deyə Cili Şatner vurğulayıb.

Heykəltaraş Mark Şatner isə Bakıda və ümumilikdə Azərbaycanda təbiətin qorunmasına xüsusi əhəmiyyət verildiyini deyib: "Söhbətlərimiz zamanı Bakının və bütövlükdə Azərbaycanın vəhşi təbiətin mühafizəsi, eləcə də ətraf mühitin qorunması istiqamətində həyata keçirdiyi dəyərli təşəbbüslər...

Anar Ələkbərov, həmçinin layihənin Heydər Əliyev Mərkəzində keçirilməsində əməyi olan hər kəsə təşəkkürünü bildirib və Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya layihənin reallaşmasına göstərdiyi böyük dəstəyə görə dərin minnətdarlığını ifadə edib.

Heykəltaraş Cili Şatner çıxışında deyib ki, bu sərgi onlar üçün adi bir layihə deyil, təbiətə olan sevgilərinin ümumi bir təntənəsidir.

"Bu sərgi ilə biz qəlblərimizi, hekayələrimizi və danışa bilməyən heyvanların səsini insanlara çatdırmaq istəyirik. Biz hər zaman inanmışıq ki, incəsənət qəlbləri birləşdirən ən güclü vasitədir".

O, həmçinin bildirib ki, onların monumental heykəlləri indiyədək Nyu-York, London, Sinqapur, Sidney, Şanxay da daxil olmaqla dünyanın 250-dən çox şəhərində nümayiş etdirilib.

Tədbirdə çıxış edən heykəltaraş Mark Şatner bildirib ki, Azərbaycana ilk dəfə səfər edirlər və Heydər Əliyev Mərkəzində belə möhtəşəm bir məkanda sərgilərinin açılması onlar üçün böyük sevincdir.

adlandırır.

Daha sonra qonaqlar sərgi ilə tanış olublar.

"Vəhşi təbiətin super qəhrəmanları"nda nəsli kəsilməkdə olan canlıların gələcək taleyi mövzusu aktuallaşdırılır. Ekspozisiya təbiəti qorumaq missiyasını üzərinə götürən, bir-birindən fərqli, lakin ayrılmaz iki qəhrəman - "Dovşan xanım" ("Rabbit woman") və "İt adam"ın ("Dog man") macəralarını əks etdirir. Bu iki qəhrəman özlərində "fərqliyik, amma bir-birimizlə harmoniya yaradaraq yaşayıb, təbiətin qayğısına qala bilərik" ideyasını canlandırır.

Sərgidəki rəngkarlıq əsərləri, kiçik və iriölçülü heykəllər bizi təbiətin mühafizəsində ortaq məsuliyyətimiz haqqında düşünməyə səsləyir. Bununla da incəsənət vasitəsilə dünyaya vacib çağırış edilir: vəhşi təbiəti sevgi ilə əhatə etmək, onun qorunub-saxlanılması üçün mübarizə aparmaq.

Bakı sərgisi təkcə canlı aləmin mühafizəsi haqqında deyil, həm də şəfqət, cəsarət və birlik haqqında hekayədir.

05_27 IYUI-QARA.qxd 2/5/2026 10:32 PM Page 14



# Qəhrəmanlığı ilə vətən olan oğul...

***27 sentyabr 2020-ci ildə erməni təxribatı nəticəsində İkinci Qarabağ müharibəsi başlayanda Biləsuvar rayonunun Bəydilli kəndində boya-başa çatan Hikmət Qəhrəman oğlu Bağırlı Vətənin harayına birinci gedənlərin sırasında olub. Yurdumuzun müdafiəsinə qalxanda o, 19 yaşında idi. Qaldı ki, doğma Azərbaycanı özündən çox sevdiyinə görə onun yolunda şəhid olmağı özünə şərəf sayıb. Son damla qanına qədər yağıya qarşı əsl qəhrəman kimi döyüşüb. Bu Vətən sevdalısı gələcək nəsillər üçün örnək olacaq bir hünər göstərərək əbədiyyət dünyasına qovuşub.***

30 il düşmən tapdağında qalan Qarabağımızın azadlığı naminə şərəfi döyüş yolu keçən, şəhidlik zirvəsinə ucalmaqla ürəklərdə özünə əzəmətli abidə ucaldan Hikmət Bağırlı orta məktəbi yaxşı qiymətlərlə başa vurub. El-obada bu ağıllı, vətənpərvər, işgüzar oğlana böyük hörmət olub. Doğma Azərbaycanın hər guşəsini özünə əziz bilən Hikmət Qarabağı işğal edən erməni dığalardan qisas almaq məqsədilə ordu sıralarına yollanıb. Cəbhə bölgəsində kəşfiyyatçı kimi xidmətə başlayıb. Çox cəsur, qorxmaz bir gənc olmaqla



hamı tərəfindən sevilib. Vətən qarşısında borcunu şərəflə yerinə yetirib. Bir qayda olaraq yurdumuzun ərazilərinin işğaldan azad olunacağı günü intizarla gözləyib. Döyüş meydanında getdikcə güclənən ordumuzun erməni qəsbkarlarına qalib gələcəyinə tam inanan Hikmət hərbi biliklərə mükəmməl yiyələnib. Təlimlərə həvəslə qoşulub, üzərinə düşən bütün tapşırıqları peşəkarlıqla görüb.

27 sentyabr 2020-ci ildə əsgər Hikmət Bağırlının gözlədiyi gün gəlib. Erməni işğalına son qoyulması üçün Vətən təəssübünü çəkən mərd oğullarla bir cərgədə silaha sarılaraq savaş meydanına girib. Elə ilk çətin əks-hücum əməliyyatlarında düşmənə sarsıdıcı zərbə vurmaqla onun kabusuna çevrilib. Heç bir hücum zamanı dığalar igid əsgərin qarşısında dayana bilməyib, böyük itki verməklə geri çəkilib. Hər dəfə azad olunan torpaqlarda üçrəngli qələbə bayrağımız dalğalananda Hikmət yağıya qarşı daha qəddarlıqla davranıb. Ən böyük arzusu da hər qarşı torpaq uğrunda döyüşüb ailəsinə qalib ordunun əsgəri kimi üzüağ dönməsi olub.

Hikmət Füzuli istiqamətində gedən döyüşlərdə yağının başına od ələməklə tarix yazıb. Odunalovun içində göstərdiyi fədakarlığı, hünəri heyrət doğurdub. Düşmənin çoxlu sayda canlı qüvvəsini, döyüş texnikasını məhv etməklə özü də şəhidlik zirvəsinə ucalıb. Nəsibi şərəfli ölüm olan Biləsuvar elinin qəhrəman oğlunun müharibə meydanında göstərdiyi şücaəti dövlət tərəfindən "Vətən uğrunda", "Cəsur döyüşçü", Füzulinin və Cəbrayılın azadlığına görə medallara layiq görülüb.

Hikmət Bağırlı Vətən, torpaq uğrunda şirin canını fəda edib. Buna görə də ürəklərdə yaşamaqla heç vaxt unudulmaz.

*Zəfər Orucoğlu,*
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*

# 2025-ci ildə Laçın rayonu üzrə kənd təsərrüfatı, sənaye və muzdla işləyənlərin statistikası

***2025-ci ildə kənd təsərrüfatı bitkilərinin ümumi əkin sahəsi 3112,0 hektar olmuşdur. Əkin sahələrinin 2401,2 hektarı dənli bitkilər, 710,8 hektarı yem bitkisi (yonca) olmuşdur.***

Bu sahələrdən 1150,0 ton buğda, 1889,4 ton arpa və 3700,0 ton yem bitkisi (yonca) məhsulu yığılmışdır. Orta məhsuldarlıq buğdada 7,3 sentner, arpada 22,8 sentner, yoncada isə 52,1 sentner təşkil etmişdir. İl ərzində heyvandarlıq sektorunda da məhsul istehsalı olmuşdur. Belə ki, rayon üzrə diri çəkidə 3395,0 ton ət, 23387,0 ton süd, 4695,0 min ədəd yumurta və 313,0 ton yun istehsal edilmişdir.

### Sənaye istehsalı və əsas kapitala yönəldilmiş vəsaitlər

2025-ci ildə Laçın rayonu üzrə istehsal edilmiş sənaye məhsulunun və göstərilmiş sənaye xidmətlərinin həcmi 57246,6 min manat təşkil etmişdir. Sənaye istehsalının Ümumi Daxili Məhsuldakı (ÜDM) xüsusi çəkisi 10,1 faiz olmuşdur. Bu göstərici 2024-cü il üzrə 6,4 faiz təşkil etmişdir. İstehsal edilmiş sənaye məhsulunun və göstərilmiş sənaye xidmətlərinin həcmi 2024-cü illə müqayisədə 8,8 faiz çox olmuşdur.

Rayonun iqtisadi və sosial sahələrinin inkişafı, infrastrukturun qurulması və digər məqsədlər üçün 2025-ci ildə bütün maliyyə mənbələrindən əsas kapitala 453093,6 min manat vəsait yönəldilmişdir. Bu vəsaitin 98,9 faizi tikinti-quraşdırma işlərinə sərf olunmuşdur. Əsas kapitala sərf olunmuş vəsaitin məbləği 2024-cü illə müqayisədə 50,2 faiz, o cümlədən tikinti quraşdırma işlərinə sərf olunmuş vəsaitin məbləği 50,1 faiz az olmuşdur.

### Muzdla işləyənlər barədə məlumat

2025-ci ilin yanvar- dekabr aylarında rayon iqtisadiyyatında muzdla çalışan işçilərin orta sayı 7,2 min nəfər olmuş, onlardan 6,2 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 1,0 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərmişdir.

Muzdla işləyənlərin 5,1 faizi tikinti, 3,9 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi, 5,5 faizi dövlət idarəetməsi və müdafiə; icbari sosial təminat, 52,9 faizi təhsil, 10,7 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 7,6 faizi istirahət, əyləncə və incə



sənət sahəsində fəaliyyət, 14,3 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar.

2025-ci ilin yanvar-dekabr aylarında rayon iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 12,7 faiz artaraq 747,6 manat təşkil etmişdir. İqtisadiyyatın emal sənayesi, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təshizatı, tikinti, nəqliyyat və anbar təsərrüfatı, maliyyə və sığorta fəaliyyəti, dövlət idarəetməsi və müdafiə; icbari sosial təminat və digər sahələrdə xidmətlərin göstərilməsi sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olmuşdur.

*Laçın Rayon Statistika İdarəsi*



# Bakıda cərrah vəfat etdi

***Bakıda həkim-cərrah Könül Sultanova vəfat edib.***

"Unikal" xəbər verir ki, o, Binəqədi rayonu, Biləcəri qəsəbəsində yerləşən 15 saylı şəhər poliklinikasında işləyirdi. Mərhum 62 yaşında uzun sürən xəstəlikdən sonra dünyasını dəyişib.

# Mingəçevirdə ana və 3 övladı dəm qazından zəhərləndi

***Mingəçevirdə bir ailənin 4 üzvü dəm qazından zəhərlənib.***

"Unikal"ın məlumatına görə, hadisə bağlar yaşayış massivində baş verib.

Yaşadıqları evin mətbəxində zəhərlənən bir ailənin üzvləri - 2010-cu il təvəllüdlü Yusifli Dilbazi Rəşad qızı, 2014-cü il təvəllüdlü Yusifli Nəzrin Rəşad qızı, 2015-ci il təvəllüdlü Yusifli Emin Rəşad oğlu və 1988-ci il təvəllüdlü Yusifova Nübar Aslan qızı xəstəxanaya çatdırılıb.

Faktla bağlı araşdırma aparılır.

*Ehtiram Muradov*

# TKT imtahanına qeydiyyat aparılır

***Dövlət İmtahan Mərkəzi (DİM) aprelin 25-də elektron imtahanlar korpusunda (Bakı şəhəri, Binəqədi rayonu, S.S. Axundov, 50) TKT (Teaching Knowledge Test) imtahanı keçirəcək.***

DİM-dən "Unikal"a bildirilib ki, imtahana qeydiyyat martın 5-dək aparılacaq.

Kembric Universiteti Nəşriyyat və Qiymətləndirmə qurumunun rəsmi test mərkəzi olan DİM ingilis dili müəllimləri üçün bilik və bacarıqları beynəlxalq səviyyədə təsdiq edən TKT (Teaching Knowledge Test) kvalifikasiyasının 1, 2, 3, YL (Young Learners - azyaşlı öyrənənlərə dilin tədrisi), CLIL (Content and Language Integrated Learning - dilin məzmunla inteqrativ tədrisi) modulları üzrə imtahan təşkil edir.

Qeyd edək ki, DİM Kembric ingilis dili üzrə qiymətləndirmə (Cambridge English Qualifications), Kembric ingilis dili üzrə tədris (Cambridge English Teaching) imtahanlarını da təklif edir. Dövlət İmtahan Mərkəzi, həmçinin tələb əsasında Kembric ingilis dili üzrə səviyyə testi (Cambridge English Placement Test - CEPT) təşkil edir. Əlavə məlumat almaq üçün international@dim.gov.az ünvanı ilə əlaqə saxlamaq mümkündür.

İmtahana gələn namizədlər mütləq şəkildə şəkilli şəxsiyyət vəsiqəsini və "Confirmation of Entry" (CoE) sənədini (international@dim.gov.az ünvanından göndərilir) özləri ilə gətirməlidirlər. İmtahan otağına yalnız şəxsiyyət vəsiqəsi, su, sadə karandaş (göy diyircəkli qələmdən istifadəyə icazə verilmir), pozan və karandaşyonan aparılmasına icazə verilir.

# Şöbə müdiri direktor müavini təyin edildi

***Lənkəran Dövlət Peşə Təhsil Mərkəzində yeni təyinat olub.***

"Unikal"ın məlumatına görə, Rəşad Fərəczadə Lənkəran Dövlət Peşə Təhsil Mərkəzində tədris və təlim işləri üzrə direktor müavini vəzifəsinə təyin edilib.

Qeyd edək ki, R.Fərəczadə daha əvvəl Lənkəran Dövlət Universitetində şöbə müdiri olub.

*Seymur Əli*

05_27 IYUl-QARA.qxd 2/5/2026 10:32 PM Page 15



# Epşteyn FETÖ-nün vəkilinə bu məsələlərdə kömək edibmiş



***ABŞ-də Ceffri Epşteyn qalmaqalı ilə bağlı hadisələr hələ də xəbər başlıqlarında yer alır. Bunun fonunda FETÖ-nü təmsil edən vəkil Reid Vaynqartenin Epşteyni də təmsil etdiyi ortaya çıxıb.***

"Unikal" xəbər verir ki, bu barədə "TRT Haber" mənbələrə istinadən məlumat dərc edib.

Qeyd olunur ki, FETÖ-nun 2016-cı ildə çevriliş hərəkətlərindən sonra sözügedən vəkil Epşteynlə əlaqə saxlayıb və ondan dəstək istəyib.

Göndərdiyi elektron poçtda Vaynqarte Epşteyndən təşkilat üzvlərini Türkiyəyə təhvil verməməsini istəyib və ABŞ-nin müvafiq orqanlarından onları qorunmasını tələb edib.

Sənədlərdə həmçinin "MOSSAD"ın (İsrail xüsusi xidmət orqanı. - red) PKK və YPG terror təşkilatları ilə davamlı olaraq planlar qurduğunu və onlara rəhbərlik etdiyini ortaya çıxıb. Sənədlərdə adı çəkilən adlar da diqqətəlayiqdir.

2009-cu ildə ABŞ-nin keçmiş prezidenti Barak Obamaya Nobel Sülh Mükafatını təqdim edən Nobel Komitəsinin keçmiş sədri və Norveçin keçmiş baş naziri Torbyorn Yaqlandın adı 2000-dən çox sənəddə hallanır.

Adı tez-tez çəkilən digər bir şəxs isə "Microsoft" şirkətinin qurucusu Bill Geytsdir. Geyts üç il ərzində Epşteynlə bir neçə dəfə görüşdüyünü etiraf edib və bunu "səhv" adlandırıb.

***Gülayə Mecid***

# "Ermənilər bu sualı özlərinə verməlidir" - Rusiyadan xəbərdarlıq

***Avropa Birliyinə mümkün üzvlük qərarı Ermənistan xalqının seçimidir. Lakin Yerevan Aİ-nin mahiyyətindəki dəyişikliyi nəzərə almalıdır.***

"Unikal" xəbər verir ki, bunu Rusiya Baş nazirinin müavini Aleksey Overçuk bildirib.

Onun sözlərinə görə, Aİ-yə üzvlük üçün rəsmi danışıqlar nə vaxtsa başlasa, uzun illər davam edəcək: "Əlbəttə ki, Avropa İttifaqının dinamikasına, nəyə çevrildiyinə baxmalıyıq. Burada Avropa Komissiyasının və Brüsselin bəyanatlarına əməl edilməlidir. Bu da Avropa İttifaqının iqtisadi birlikdən hərbi-siyasi birliyə çevrildiyini göstərir. Bunu nəzərə almaq lazımdır. Avropa İttifaqının məzmunu gözümüzün qabağında dəyişir.

Ermənilər bu gün Rusiya Federasiyasına qarşı çox aqressiv olan hərbi-siyasi birliyə qoşulmağa hazırdırlarmı? Yəqin ki, ermənilər özlərinə bu sualı verməlidirlər. Hər halda, əlbəttə ki, dəfələrlə deyilib ki, istənilən inteqrasiya birliyinin seçimi həmişə erməni xalqının seçimidir. Müəyyən məqamda qərarlar qəbul edilməlidir, çünki Nikol Paşinyan həm burada, həm də Ermənistanda dəfələrlə deyib: hamı başa düşür ki, Ermənistan eyni anda iki inteqrasiya birliyində ola bilməz".

***Ağarza Elçinoğlu***

# "Çin Prezidenti Ağ Evə gələcək" - Tramp

***ABŞ prezidenti Donald Tramp Çin lideri Si Cinpinin ilin sonunda Ağ Evə səfər edəcəyini gözlədiyini açıqlayıb.***

"Unikal" xəbər verir ki, o, bu barədə jurnalistlərə açıqlamasında deyib. Tramp bildirib ki, Si Cinpin bu ilin sonlarında Ağ Evə gələcək.

Bundan əvvəl Amerika lideri Çin prezidenti Si Cinpini ölkəsinin "rəhbəri" və çox hörmətli bir insan hesab etdiyini bildirmişdi.

***Gülayə Mecid***

# Ərdoğandan İran-ABŞ danışıqlarına münasibət

***"ABŞ və İran mövcud problemləri diplomatiya yolu ilə həll etmək istəyirlər".***

"Unikal" xəbər verir ki, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib.

Onun sözlərinə görə, Türkiyə ABŞ ilə İran arasındakı gərginliyi azaltmaq üçün bütün səylərini göstərir. Ərdoğan əlavə edib ki, Vaşinqtonla Tehran arasında diplomatik proses aktiv mərhələdədir.



Qeyd edək ki, İran və ABŞ arasında nüvə danışıqları fevralın 6-da Omanda keçiriləcək. Format əvvəlki danışıqlara bənzər olacaq və Omanın vasitəçiliyi ilə keçiriləcək. İranı xarici işlər naziri Abbas Əraqçi , ABŞ-ni isə prezidentin xüsusi elçisi Stiv Vitkoff təmsil edəcək.

Fevralın 3-də İranın Ali Liderinin müşaviri Əli Şamxani Tehranın ABŞ-nin qarşılıqlı addımları müqabilində nüvə proqramını azaltmağa hazır olduğunu açıqlayıb. O, bildirib ki, Vaşinqton güzəştə getməyə hazır olarsa, İran uranın zənginləşdirilməsi səviyyəsini hazırkı 60%-dən 20%-ə endirməyi düşünür.

***Gülayə Mecid***

# "İlham Əliyev ümid mayakıdır" - Roma Papası

***Roma Papası XIV Leo 2026-cı il "Zayed İnsan Qardaşlığı Mükafatı" laureatlarına mesaj göndərib.***

"Unikal" xəbər verir ki, bu barədə xarici KİV yazıb. Məktubda deyilir: "Laureatlarımız - Ermənistanın Baş naziri Nikol Paşinyan, Azərbaycan Prezidenti İlham Əliyev, xanım Zərqa Yaftali və Fələstin təşkilatı Taavon - çox vaxt körpülər əvəzinə divarlar tikən bir dünyada ümid mayaklarıdır.

Laqeydlik əvəzinə çətin həmrəylik yolunu seçməklə, onlar hətta ən dərin kök salmış ayrılıqların belə konkret hərəkətlərlə sağaldılmasının mümkün olduğunu göstərdilər. Onların işi sübut edir ki, qardaşlıq işığı qardaş qırğınının qaranlığını dəf edə bilər".

Xatırladaq ki, fevralın 4-də Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabi şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə "Zayed İnsan Qardaşlığı Mükafatı" təqdim olunub.

***Ağarza Elçinoğlu***



# Epşteynin malikanəsindən qalmaqallı foto - Vəliəhd hədəfdə!

***Ceffri Epşteynin Manhettendə yerləşən malikanəsindən üzə çıxan yeni foto və arxiv görüntüləri onun dünya miqyaslı tanınmış şəxslərlə əlaqələrini yenidən gündəmə gətirib.***

"Unikal" xəbər verir ki, ABŞ-nin nüfuzlu "The New York Times" nəşrinin yayımladığı fotolar arasında Epşteynin evində Səudiyyə Ərəbistanının vəliəhdi Məhəmməd bin Salmanın (MBS) çərçivəyə salınmış fotosunun yer alması sosial şəbəkələrdə geniş rezonans doğurub.

Epşteynin malikanəsində çoxsaylı yüksək profilli şəxslərin fotolarının nümayiş etdirilməsi, maliyyəçinin qlobal əlaqələr şəbəkəsi ilə bağlı əvvəlki hesabatlarla üst-üstə düşərək tənqidlərin artmasına səbəb olub. Sözügedən foto yayımlandıqdan sonra sosial media istifadəçiləri Salmanın Epşteynlə mümkün əlaqələrini sərt



şəkildə tənqid ediblər. Bəzi şərhlərdə bu bağın Yaxın Şərqdəki siyasi münasibətlər və beynəlxalq mövqelər fonunda qiymətləndirildiyi vurğulanıb.

Qeyd edək ki, Ceffri Epşteyn 2019-cu ildə azyaşlılara qarşı cinsi istismar və insan alveri ittihamları ilə federal səviyyədə həbs edilmiş, daha sonra Nyu-Yorkdakı həbsxana kamerasında ölü tapılmışdı. İctimaiyyətə təqdim olunan arxiv materialları təkcə fotolarla məhdudlaşmır, eyni zamanda Epşteynin son dərəcə geniş sosial çevrəsinə işıq salan sənədləri də əhatə edir.

Yayımlanan görüntülər arasında yalnız Salmanın deyil, digər beynəlxalq liderlərin və tanınmış iş adamlarının fotolarının da olduğu bildirilir. Bu isə keçmiş ABŞ prezidentləri, biznes dünyasının aparıcı fiqurları və mədəniyyət ikonları ilə Epşteyn arasındakı əlaqələr barədə yeni spekulyasiyalara yol açıb.

Mütəxəssislərin fikrincə, Epşteynin ölümündən sonra üzə çıxan bu sənədlər təkcə fərdi əlaqələri deyil, eyni zamanda qlobal siyasət, güc və nüfuz şəbəkələrini yenidən sual altına alır. Xüsusilə MBS kimi aktiv siyasi fiqurların adının bu cür arxivlərdə hallanması iddiaların miqyasını daha da genişləndirən amil kimi qiymətləndirilir.

***Gülayə Mecid***

# "Bu, bütün region üçün təhlükəli ola bilər" - Lavrov

***"Rusiya Yaxın Şərqdə, xüsusən də İran ətrafında baş verən hazırkı hadisələrdən narahatdır".***

"Unikal" xəbər verir ki, bunu Rusiyanın xarici işlər naziri Sergey Lavrov deyib.

Diplomat xatırladıb ki, İran Rusiyanın yaxın tərəfdaşı və qonşusudur: "Əlbəttə ki, hadisələrin hazırda necə inkişaf etdiyinə biganə deyilik. Rusiya özünü ABŞ, İran və İsraillə müttəfiq olmağa məcbur etmir, lakin Yaxın Şərqdəki vəziyyətin necə inkişaf edəcəyindən narahatdır. Biz hazırda özümüzü İsrail, İran və ya ABŞ-yə vasitəçi kimi təqdim etmirik. Onlarla təmaslarımızda sadəcə vəziyyəti müzakirə edirik".

Onun sözlərinə görə, ABŞ ilə İran arasında münasibətlərin pisləşməsi təkcə Tehran üçün deyil, bütün



region üçün potensial olaraq təhlükəli ola bilər.

***Ağarza Elçinoğlu***

05_27 IYUI-QARA.qxd 2/5/2026 10:32 PM Page 16



# Superliqa klubu sabiq baş məşqçisini geri qaytara bilər



***Türkiyənin "Konyaspor" klubu sabiq baş məşqçisi İlhan Palutu geri qaytarmağa hazırlaşır.***

"Unikal" Superliqa təmsilçisinin rəsmi saytına istinadən xəbər verir ki, təcrübəli mütəxəssis baş məşqçi vəzifəsi ilə bağlı dəyərləndirmələr aparmaq və fikir mübadiləsi həyata keçirmək məqsədilə Konya şəhərinə dəvət olunub.

Tərəflər arasında baş tutacaq görüşmələrdən sonra ictimaiyyətə rəsmi açıqlama veriləcəyi bildirilib.

Xatırladaq ki, İlhan Palut 2021-2023-cü illərdə "Konyaspor"a rəhbərlik edib.

Qeyd edək ki, komandanı ötən ilin noyabr ayından Çağdaş Atan çalışdırırdı.

# "Arsenal" 17 yaşlı futbolçu üçün 90 milyon avro ödəmək istəyir

***Almaniyanın "Bavariya" klubunun futbolçusu Lennart Karl karyerasını İngiltərədə davam etdirə bilər.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, "Arsenal" 17 yaşlı yarımmüdafiəçinin xidmətində maraqlıdır. London klubu bu keçid üçün Münhen təmsilçisinin tələb etdiyi 90 milyon avroluq təzminat məbləğini ödəməyə hazırdır.



Qeyd edək ki, "Bavariya"nın yetirməsi olan Lennart Karlın Bundesliqa təmsilçisi ilə 2028-ci ilin yayına qədər müqaviləsi var. Futbolçu bu mövsüm 29 oyunda meydana çıxıb, 7 qol vurub və 3 məhsuldar ötürmə edib.

# "Mançester Siti" finalda "Arsenal"a rəqib oldu

***"Mançester Siti" İngiltərə Liqa Kubokunun yarımfinal mərhələsinin cavab oyununda "Nyukasl"ı 3:1 hesabı ilə məğlub edərək turnirin finalına yüksəlib.***

"Unikal" xəbər verir ki, qarşılaşma Mançesterdəki "Etihad" stadionunda baş tutub.

Qalib komandanın heyətində qolları Omar Marmuş (7 və 29-cu dəqiqələr) və Ticani Reynders (32) vurublar. "Nyukasl"ın yeganə qoluna isə Antoni Elanqa (62) imza atıb. İlk görüşdə də "Mançester Siti" səfərdə 2:0 hesablı qələbə qazanmışdı.

Finalda "Mançester Siti" iki oyunun nəticəsinə görə "Çelsi"ni (3:2, 1:0) üstələyən "Arsenal" ilə qarşılaşacaq. Titul uğrunda həlledici matç martın 22-də Londondakı "Uembli" stadionunda keçiriləcək.

İngiltərə Liqa Kuboku 1960-cı ildən bəri keçirilir. Ötən il turnirin qalibi ilk dəfə "Nyukasl" olub. Qələbə sayına görə lider 10 titulla



"Liverpul"dur. "Arsenal"ın hesabında 2, "Mançester Siti"nin aktivində isə 8 qələbə var.

# Azərbaycan karateçisi beynəlxalq turnirdə qızıl medal qazanıb

***Azərbaycan karateçisi Qürbət Məhərrəmov şəhidlərimizin xatirəsinə həsr olunmuş ənənəvi XI "Arpaçay Open" beynəlxalq turnirində qızıl medal qazanıb.***

+80 kiloqram çəkidə çıxış edən idmançı karatenin Olimpiya növü olan WKF versiyası üzrə 30 yaş qrupu üzərindən fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Yarışa Azərbaycan Milli Karate Federasiyasının beynəlxalq dərəcəli hakimi Vüqar Kərimovun rəhbərliyi ilə çıxan Q.Məhərrəmov Avropa və dünya çempionatının bürünc medalçısıdır. O, həmçinin ikinci Dan qara kəmər ustasıdır.

Qeyd edək ki, "Sərhədçi" İdman Olimpiya Mərkəzində keçirilən turnirdə 12 ölkədən 1300-dən çox idmançı və 11 beynəlxalq dərəcəli hakim iştirak edib.



# "İnter" yarımfinala yüksəldi

***İtaliya kubokunun 1/4 final mərhələsinə start verilib.***

"Unikal" xəbər verir ki, ilk gündə 1 oyun baş tutub.

"İnter" evdə "Torino" ilə qarşılaşıb. Milan təmsilçisi çətin qələbə sayəsində ilk yarımfinalçı olub.

İtaliya kuboku

1/4 final mərhələsi

İnter - Torino 2:1

Qollar: Bonni, 35. Diuf, 47 - Kulenoviç, 57.

# Qadın güləşçilərimiz ilin ilk yarışına çıxırlar

***Xorvatiyanın paytaxtı Zaqrebdə 2026-cı ilin ilk reytinq turnirinə start verilib.***

"Unikal" xəbər verir ki, "Zaqreb Open" adlanan ənənəvi yarışda ölkəmizi qadın güləşi üzrə millimiz təmsil edir. Baş məşqçi əvəzi Toğrul Əsgərov və böyük məşqçi Ağahüseyn Mustafayevin rəhbərliyi altında Əsmər Cankurtaran, Elnurə Məmmədova (hər ikisi 50 kiloqram), Nərgiz Səmədova (53 kiloqram), Jalə Əliyeva (57 kiloqram), Günay Qurbanova (59 kiloqram), Birgül Soltanova (68 kiloqram) və Zəhra Kərimzadə (72 kiloqram) xalçaya çıxacaqlar.

Turnirdə ədaləti I dərəcəli hakim Əli Babayev qoruyacaq.

# Gimnastika üzrə Olimpiya çempionu Parisdən sonra ilk yarışını Bakıda keçirəcək

***İdman gimnastikası üzrə ikiqat dünya və Olimpiya çempionu Ris MakKlenaqan "Paris-2024" Yay Olimpiya Oyunlarından sonra ilk yarışını Bakıda keçirəcək.***

AZƏRTAC BBC-yə istinadən xəbər verir ki, irlandiyalı gimnast mart ayında Bakıda təşkil olunacaq Dünya Kubokunda çıxış edəcək.

26 yaşlı idmançı ötən ilin iyulunda çiyin nahiyəsindən əməliyyat olunub və bu səbəbdən heç bir yarışa qatılmayıb. Gimnast Paris Olimpiadasından sonra ilk dəfə məhz Azərbaycanda medal uğrunda mübarizə aparacaq.

O, martın 5-8-də Bakıda keçiriləcək Dünya Kubokunda və ayın 12-15-də Türkiyənin Antalya şəhərində baş tutacaq növbəti mərhələdə qüvvəsini sınayacaq.

Bakıdakı yarış üçün İrlandiya yığmasının heyətində, həmçinin Eymin Montqomeri, Oşin O'Konnell, Daniel Foks, Çester Enrikes və Ceyms Hikki də yer alıb.

# "Tottenhem" Durandan imtina etdi

***"Tottenhem" "Əl-Nəsr"in hücumçusu Con Duranı transfer etməklə bağlı fikrini dəyişib.***

QOL.az xəbər verir ki, bu barədə insayder Fabritsio Romano məlumat yayıb.

22 yaşı futbolçu İngiltərə nəhənginə təklif olunub. Duranın özü də icarə əsasında "Tottenhem"in düşərgəsinə keçməkdə maraqlı idi. Lakin London təmsilçisi sonradan bu transferi gerçəkləşdirməkdən imtina edib. "Tottenhem" Kolo Moaniyə pul yatırmaq qərarına gəlib.

Duran mövsümün ilk hissəsini icarə əsasında "Fənərbaxça"da keçirib, 21 oyunda 5 qol vurub və 3 məhsuldar ötürmə edib.